www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  12 sentyabr 2019-cu il  Cümə axşamı № 188 (7358)  Qiymәti 60 qəpik

**Xəbər**

## Qarabağda savaş ssenarisi - dinc həll imkanları tükənir

yazısı səh.11-də

**Gündəm**

### Sənədsiz evlərlə bağlı yaxın vaxtlarda sərəncam veriləcək



Ölkə rəhbərliyinə tədbirlər planı təqdim olunub, əhalinin çoxdandır gözlədiyi məsələ həllini tapır

yazısı səh.10-da

### AŞ PA prezidenti Azərbaycanda kimlərlə görüşdü - deputatdan rəy

yazısı səh.3-də

### İqtidar-müxalifət dialoqunun başlanması üçün şans

yazısı səh.7-də

### Həmsədrlərin son bəyanatına Bakıdan sərt etirazlar

yazısı səh.13-də

### "Hərbi əməliyyatlara başlamamağımız ermənilərə güzəştdir" - Akif Nağı

yazısı səh.6-da

### Proporsional seçki sisteminin bərpası yenidən gündəmdə

yazısı səh.3-də

### Bu qış normal kommunal xidmət ala biləcəyikmi - rəsmi mövqe

yazısı səh.4-də

### Bakıda adam oğurluğu ilə məşğul olan dəstə zərərsizləşdirildi

yazısı səh.12-də

### Kikboks üzrə beşqat dünya çempionunun məhkəmə hökmü qalmaqal yaratdı

yazısı səh.14-də

### İki qurum Bakıda dayanma-durma və parklanma xaosu yaradıb - reportaj

yazısı səh.12-də

### Maşın bazarlarındakı fırıldaqçı şəbəkə - vətəndaşları soyurlar

yazısı səh.15-də

# İRƏVAN BAKININ "RUS NATO-SU"NA YOLUNU AÇDI - PUTİNİN TƏHDİDİ

Ermənistan parlamenti KTMT yanında müşahidəçi statusu nəzərdə tutan sənədi ratifikasiya etdi; işğalçı ölkənin parlamentində anti-Rusiya çıxışları - Paşinyan hökuməti Kremldən həm qorxur, həm də qorxutmağa çalışır...




yazısı səh.8-də

## İqtidar və müxalifət birgə sənəd imzaladı

"Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi" mövzusunda dəyirmi masa keçirildi, qarşılıqlı tənqidlər səsləndi

yazısı səh.5-də



*Tofiq Zülfüqarov:*
**"Paşinyan mövqeyinə aydınlıq gətirməyincə danışıq olmamalıdır"**

yazısı səh.9-da



Con Bolton

**ABŞ xarici siyasətinin "qırğısı" getdi - Boltonun qovulmasının pərdəarxası məqamları**

yazısı səh.13-də



**"Mübariz İbrahimov adına stansiya" təklifinə reaksiyalar gəldi**

yazısı səh.6-da



## Prezident Sverdlovsk vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi

**Prezident İlham Əliyev sentyabrın 11-də Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AzərTAc xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycanın Rusiyanın ayrı-ayrı vilayətləri, o cümlədən Sverdlovsk vilayəti ilə əlaqələrinin genişlənməsindən məmnunluq doğurduğu bildirilinb.**

Söhbət zamanı Azərbaycanla Sverdlovsk vilayəti arasında ticarət dövriyyəsinin 85 faiz artması iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinin yaxşı göstəricisi kimi dəyərləndirildi, ticarət dövriyyəsinin daha da artırılması üçün lazımi potensialın mövcud olduğu vurğulanıb. Eyni zamanda, Bakıda keçiriləcək biznes forumun əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub. Son illər Rusiyadan Azərbaycana gələn turistlərin sayının durmadan artdığı vurğulanaraq, Sverdlovsk vilayəti ilə turizm sahəsində əlaqələrin inkişaf etdirilməsinin önəmi bildirilib.

Görüşdə əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən sənaye, maşınqayırma sahələrində birgə layihələrin həyata keçirilməsi, sərmayə qoyuluşu, mədəniyyət, təhsil sahələri ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edilib.

## Azərbaycanda bal idxalına məhdudiyyətlər qoyula bilər

**Azərbaycan Arıçılar Assosiasiyası ölkəyə bal idxalına məhdudiyyətlərin tətbiq edilməsinə dair ölkə rəhbərliyinə məktub ünvanlayıb. Bunu "APA-Economics"ə Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov deyib.**

Onun sözlərinə görə, bununla bağlı müvafiq tədbirlərin tətbiqi ölkədə bal istehsalının sürətlə artacağına şərait yaradacaq.

"Dünyada belə bir praktika mövcuddur. Məsələn, Türkiyə idxala məhdudiyyət tətbiq etdikdən sonda bu sahəni sürətlə inkişaf etdirə bildi. Eyni praktika İsraildə də tətbiq olunub, bu ölkə hazırda bal ixrac edən ölkəyə çevrilib", - deyə B. Həsrətov qeyd edib.

Assosiasiyasının sədri əlavə edib ki, Azərbaycanda ixrac potensialı mövcuddur, lakin burada söhbət daha çox premium məhsulların ixracından gedir.

"Azərbaycan balı, məsələn, Ukraynanın günəbaxan, yonca və qarabaşaq balı ilə müqayisə oluna bilmədiyi üçün qiymət baxımından da yanaşı tutula bilməz. Belə ki, Ukrayna balı kütləvi istehsal olunduğuna və daha aşağı tərkibli sıradan bal sayıldığından dünya bazarına aşağı qiymətlə çıxarılır. Dünya bazarında isə iki qiymət mövcuddur - sıradan olan balların qiyməti, hansıların ki, 1 kiloqramı 10-20 ABŞ dolları təşkil edir, bir də 100-150 dollardan başlayan qiymətlə premium məhsulu. Azərbaycan balı məhz premium kateqoriyaya daxil olan məhsuldur. Sadəcə olaraq, yerli məhsulu dünyada tanıtdırmağa ehtiyac var. Digər tərəfdən, ən əsas məqamlardan biri də istehsalçılarda orqanik sertifikatın olmasıdır ki, bu, yerli məhsulun istənilən bazara daxil olmasına yol aça bilər", - deyə B. Həsrətov qeyd edib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Uşaq pulu ilə ünvanlı sosial yardım fərqli mexanizmlərdir" - ekspertdən maraqlı təklif

**Azərbaycanda uşaqlara dövlət qayğısının mühüm elementlərindən biri olan uşaq pulunun bərpası məsələsi ilə bağlı müzakirələr davam edir. Bu müzakirələrdə bir qisim müxtəlif qrup uşaqlara görə dövlət tərəfindən müavinət ödənildiyini əsas gətirərək, bütün uşaqlara yönəlik ödənişə ehtiyac olmadığını bildirir. Daha bir qisim isə uşaq pulu bərpa olunsa, ondan varlı ailələrin də yararlanacağını əsas gətirir.**



Vüqar Bayramov

Xatırladaq ki, İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD) tərəfindən yaş qrupları üzrə uşaqlara müavinətin - uşaq pulunun ödənməsinə dair təkliflər paketi hazırlanaraq hökumətə təqdim olunub. Mərkəzin rəhbəri, iqtisadçı-ekspert Vüqar Bayramov bildirir ki, uşaq pulunun verilməsi ilə bağlı hazırlanan mexanizmin təqdimatından sonra məsələyə fərqli yanaşmalar var: "Rəsmi açıqlamalarda daha çox sosial qayğısı olanlara birbaşa ödənişin həyata keçirilməsi vacib hesab olunur. CESD bu sahədə fərqli ölkələrin təcrübəsini öyrəndiyi üçün Azərbaycanda İtaliya modelinin tətbiqini daha məqsədəuyğun hesab edirik. Belə ki, bəzi ölkələrdə uşaqpulunun məbləği ailənin gəlirlilik səviyyəsinə uyğunlaşdırılır. Məsələn, İtaliyada illik gəliri 11 422 avroyadək olan ailələrə hər uşağa görə ayda 250 avro ödənilir. Ailənin gəliri artdıqca uşaqpulu məbləği dəyişir. İtaliyada qanunla müəyyənləşdirilmiş həddən az gəliri olanlara uşaq pulu verilir ki, bu da onların sosial təminatının gücləndirilməsi baxımdan vacibdir".

**V.Bayramovun sözlərinə görə, Azərbaycanda 4 min manat aylıq gəliri olan üçün 100 manat uşaq pulu ciddi rəqəm hesab olunmaya bilər:** «Amma 400 manat qazanan ailə üçün bu, əhəmiyyətli dəstəkdir. Yəni imkanlı ailənin uşaq puluna ciddi ehtiyacının olmaması gəliri az olanların bu imkandan faydalanmasına əngəl olmamalıdır. Bu baxımdan, İtaliya modelində olduğu kimi, gəliri az olan ailələrin uşaqların sayına görə uşaqpulu alması daha məqsədəuyğun hesab oluna bilər.

Bunun üçün Azərbaycanda gəlirlərin deklarasıyası haqqında qanunun qəbul edilməsinə ehtiyac var. Kimin varli və kimin kasıb olduğunu müəyyənləşdirmək üçün dövlət qulluqçuları daxil olmaqla, hamının gəlirlərini bəyan etməsi vacibdir. Bu, həm də şəffaflığın gücləndirilməsi baxımdan da çox vacibdir. Bu zaman artıq sosial qayğıya və ya uşaq puluna ehtiyacı olan ailələrin müəyyənləşdirilməsi mümkündür. İkinci mərhələdə isə az gəliri olan ailələrə uşaqların sayına uyğun olaraq uşaq pulu formasında birbaşa ödəniş mümkündür. Bu, həmin ailələrin sosial müdafiəsinin gücləndirilməsi baxımdan vacib hesab oluna bilər. Bu baxımdan, uşaq pulunun bərpasında İtaliya modelinin tətbiq edilməsi həm ailələrin gəlirlərinin müəyyənləşdirilməsinə, həm də gəliri az olan ailələrin uşaq pulundan faydalanmasına imkan verəcək. Qeyd edək ki, bu mexanizm ünvanlı sosial yardımla eyni deyil və birbaşa uşaq sayına hesablanmış modeldir. CESD-in ilkin qiymətləndirmələrinə görə, bu modelin tətbiq edilməsi ildə 800 milyon manata yaxın xərc tələb edəcək. Bu, büdcə üçün ciddi maliyyə yükü yaratmamaqla istehlak bazarında qiymət tarazlığını da pozmayacaq".

**❑ DÜNYA,**
**"Yeni Müsavat"**



Mahmud Məmmədquliyev

## Nazir müavini: "Azərbaycan və Aİ arasında yeni sazişlə bağlı danışıqlar davam edir"

**"Azərbaycan və Avropa İttifaqı arasında yeni sazişlə bağlı danışıqlar davam edir".**

Bunu APA-ya açıqlamasında Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev deyib.

Nazir müavini əlavə edib ki, hazırda video-konfranslar vasitəsilə müzakirələr aparılır: "Lazım gələrsə, Brüsseldən Bakıya, Bakıdan Brüsselə də səfərlər olacaq. Danışıqlarda irəliləyiş olmalıdır".

## Tələbə adı qazananlardan 5 faizi bu hüquqdan imtina edib

**Bu il ali təhsil müəssisələrinə qəbul olunanların 95%-i qəbul olunduqları təhsil müəssisələrində qeydiyyatdan keçiblər.**

Bu barədə Dövlət İmtahan Mərkəzi APA-nın sorğusuna cavab olaraq bildirib.

Ali təhsil müəssisələrinə qəbulun I mərhələsi və boş qalan plan yerlərinə qeydiyyatdan keçənlərin sayı 41500-ə yaxındır. Universitetlərə qəbul olunanların təxminən 5%-i isə qeydiyyatdan keçməyib. Müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməmək isə abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndirilir və onun qəbul haqqında əmri ali məktəbə göndərilmir.

Qeyd edək ki, I mərhələdən sonra ali təhsil müəssisələrinə 42062 nəfər (o cümlədən 3542 subbakalavr) qəbul olunub. İlk mərhələdən sonra qəbulolma faizi 88.06 olub. Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə isə 1359 nəfər (o cümlədən 1232 nəfər subbakalavr) qəbul olunub. Nəticədə ali təhsil müəssisələrinə qəbulolma faizi artaraq 91.03 olub.

# Tramp Həsən Ruhani ilə görüşmək istədiyini bir daha bəyan etdi

**ABŞ prezidenti Donald Tramp bir daha İran prezidenti Həsən Ruhani ilə görüşmək istədiyini bildirib.**



AzərTAc-ın məlumatına görə, ötən gün Ağ Evin qarşısında jurnalistlərin suallarını cavablandıran D.Tramp bəyan edib ki, prezident H.Ruhani ilə görüşməsi üçün heç bir problem yoxdur.

Bundan əvvəl D.Trampın özü və dövlət katibi Maykl Pompeo bildirmişdilər ki, rəsmi Vaşinqton İranla yenidən danışıqlara başlamaq niyyətindədir. Dövlət katibi ABC News kanalına müsahibəsində demişdi ki, prezident D.Tramp Həsən Ruhani ilə görüşmək istəyir.

Maraqlı məqam ondan ibarətdir ki, dünən D.Tramp milli təhlükəsizlik məsələləri üzrə müşaviri və İrana qarşı sanksiyalar siyasətinin müəllifi Con Boltonu istefaya göndərdikdən sonra H.Ruhani ilə görüşmək istədiyini bildirib.

İran mətbuatı qeyd edir ki, ABŞ prezidenti sanksiyaların əks səmərə verdiyini başa düşərək C.Boltonu istefaya göndərib və İrana qarşı xoşməramlı addım ataraq danışıqlara başlamaq niyyətini ortaya qoyub.

Rəsmi Tehran ABŞ prezidentinin bəyanatına münasibət bildirməyib. Lakin İranın BMT yanındakı daimi nümayəndəsi Məcid Təxti Rəvanç bildirib ki, rəsmi Tehran ağır sanksiyalar şəraitində danışıqlar aparmayacaq.

Xatırladaq ki, sentyabrın 17-dən 26-na kimi Nyu-Yorkda BMT Baş Assambleyasının 74-cü sessiyası keçiriləcək. İranın prezident administrasiyasından bildiriblər ki, prezident Həsən Ruhani bu toplantıya qatılmaq üçün Nyu-Yorka gedəcək.

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019

# AŞ PA prezidenti Azərbaycanda kimlərlə görüşdü - deputatdan rəy

## Fazil Mustafa: "Bu səfər Azərbaycanın problemlərinin dilə gətirilməsi baxımından bir fürsətdir"

**Sentyabrın 11-də Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) prezidenti Lilian Mori Paskyenin Azərbaycana rəsmi səfəri başlayıb. İki gün davam edəcək səfər çərçivəsində AŞ PA rəhbəri bu qurumun yaranmasının 70 illiyi ilə bağlı ölkəmizdə keçirilən tədbirdə iştirak edib.**

O, çıxışında deyib: "Bu, Azərbaycana ilk səfərimdir. Səfər mənə ölkənizi yaxından tanımağa imkan verəcək. Azərbaycanın və digər ölkələrin Avropa Şurası Parlament Assambleyasına qoşulması Avropada geniş vəhdətə nail olunmasında mühüm rol oynayıb. Ona görə də AŞ PA-nın 70 illiyi ilə bağlı tədbir Azərbaycanda keçirilir".



**AŞ PA prezidenti Avropa Şurasına üzv ölkələr arasında dialoqun vacibliyini qeyd edib:** "Dialoq çox vacibdir, çünki yalnız bu yolla mövcud problemləri birlikdə həll etmək olar".

Avropa Şurası ölkələrinin İnsan Hüquqları Konvensiyasını milli səviyyədə həyata keçirmələrinin əhəmiyyətinə toxunan qonaq Bakıda keçirilən tədbiri bu məsələlərin müzakirəsi üçün əlverişli platforma kimi səciyyələndirib.

Eyni zamanda AŞ PA prezidenti Azərbaycan hökumətini Avropa Şurasının qadınlara qarşı zorakılıqla mübarizəyə dair İstanbul konvensiyasına qoşulmağa çağırıb.

Azərbaycan hakimiyyətinə təşəkkür edən L.M.Paskye səfər çərçivəsində Azərbaycan parlamentinin sədri ilə görüşdüyünü və görüşlərin sentyabrın 12-də də davam edəcəyini diqqətə çatdırıb. O, həmçinin AŞ PA-nın yaranma tarixi və məqsədləri haqqında danışıb.

Qeyd edək ki, 5-7 sentyabr tarixlərində də AŞ PA məruzəçisi Torild Sunna Evarsdottir ölkəmizə səfər etmişdi. Bir həftə ərzində bu səfərlərin reallaşması bir çox müzakirələr yaradıb. Xüsusilə səfərlər öncəsi 117 və 119 nəfərlik siyasi məhbus siyahılarının elan olunması müzakirələrin sayını daha da artırıb. Xanım məruzəçinin səfərində siyasi məhbuslar ən çox müzakirə edilən məsələlər sırasında oldu. AŞ PA prezidentinin də bu səfərində siyasi məhbusların müzakirə predmeti olacağı gözlənilir.

**Böyük Quruluş Partiyasının sədri, AŞ PA-dakı nümayəndə heyətimizin üzvü Fazil Mustafa bu səfəri önəmli sayır:** "Səfərin proqramı, hansı məramının olduğu ilə tanış deyiləm. Amma hər halda, AŞ PA ilə əlaqələrimiz müəyyən müqavilə əsasında olduğuna görə bu qurum qarşısında öhdəliklərimiz var. Orada təmsil oluruq. Ona görə də bu səfər Azərbaycanın problemlərinin dilə gətirilməsi baxımından bir fürsətdir. Səhv etmirəmsə, AŞ PA prezidentinin Azərbaycana ilk səfəridir. Bütün hallarda öz problemlərimizi dilə gətirmək üçün bu məsələdən istifadə etməliyik".

**Deputat həm AŞ PA məruzəçisinin, həm də AŞ PA prezidentinin ölkəmizə səfərlərinin yaxın zamanlarda Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq tərəfdaşlıqla bağlı sazişə təsirlərinin olmayacağını düşünür:** "Avropa İttifaqına bunun təsiri yoxdur. AŞ PA prezidentinin tamamilə başqa bir missiyası var. Onun səlahiyyət dairəsi elə də geniş deyil. Bu sırf parlamentar fəaliyyətlə bağlıdır. Ona görə də bu məsələdə Avropa Birliyi ilə münasibətlərimiz başqa kontekstdə müzakirə olunur və həll edilir. Amma hər halda, bunun Avropa qurumları ilə əməkdaşlığa ümumi faydası var. Bunu da davam etdirməliyik".



**F.Mustafa AŞ PA-nın payız sessiyası öncəsi bu səfərlərin təşkil edilməsinin və siyasi məhbuslar məsələsinin iki böyük siyahı ilə qabardılmasının Avropa tərəfindən Azərbaycana qarşı təzyiqlərin artmasına səbəb olmayacağını da qeyd etdi:** "Ortada təzyiq məsələsi yoxdur. Müzakirələr hər zaman var. Düşünürəm ki, Azərbaycana təzyiq etməklə nəyisə əldə etmək imkansızdır. Daha çox bu müzakirələrdən sonra hansısa bir konstruktiv fikirlər, təkliflər varsa, Azərbaycan da onu nəzərə ala bilər. Amma indiki vəziyyətdə təzyiqlərdən söhbət gedə bilməz".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Proporsional seçki sisteminin bərpası yenidən gündəmdə

## Taliyət Əliyev: "Azərbaycanda partiyaların zəifləməsi, siyasi sistemdə mövqelərinin azalması daha çox məhz proporsional seçki sisteminin ləğvindən sonra sürət götürdü"

**Ötən həftənin sonunda Müsavat Partiyasının qərargahında Müsavat, AXCP, REAL Partiyası və bir qrup ictimai təşkilatın təmsilçilərinin iştirakı ilə keçirilən dəyirmi masada vətəndaşların seçkilər prosesinə etimadını qaytarmağın mexanizmlərindən biri kimi proporsional seçki sisteminin bərpasının vacibliyi bəyan edilib. Hakimiyyətə bu addımı atmaq çağırışı səslənib. Bundan əvvəl də bir sıra partiyalar proporsional seçki sisteminin bərpası üçün hakimiyyətə yazılı təkliflər paketi ünvanlayıblar. Hələ ki bu təkliflər və çağırışlar müsbət nəticə verməyib. Lakin hakim partiyanın təmsilçiləri zaman-zaman açıqlamalarında bildiriblər ki, gələcəkdə nə vaxtsa proporsional seçki sisteminin bərpası istisna deyil.**



Müxalifət düşərgəsi isə proporsional seçki sisteminin majoritar sistemdən üstünlüklərinin olduğunu əsas gətirir və bu məsələdə israrlı mövqelərindən geri durmur.

Bu barədə "Yeni Müsavat"a şərhində **ADP sədrinin seçki məsələləri üzrə müavini Taliyət Əliyev** bildirdi ki, proporsional seçki sistemi çoxpartiyalı dövlət sistemini stimullaşdıran əsas şərtlərdən biridir. Proporsional seçki sistemi ilə parlamentə seçilən şəxslər bir siyasi komanda kimi dövlət quruculuğunda fəal iştirak edir. Bu komandanın hakimiyyətdə və ya müxalifətdə olmasından asılı olmayaraq ölkədə islahatların bilavasitə həyata keçirilməsi və ya həyata keçirilməsi təklifləri ilə çıxış etməsi üçün imkanlar əldə olunur. Eyni zamanda siyasi partiyalara cəmiyyətdə ehtiyac daha da artır: "Demokratik cəmiyyət quruculuğuna yeni başlayan postsosialist ölkələrində proporsional seçki sistemi tətbiq olunur. Beynəlxalq birliyin də bu seçki sistemini tələb etməsinin səbəblərindən biri çoxpartiyalı sistemin formalaşıb güclənməsində bu seçki sisteminin ciddi əhəmiyyət kəsb etməsi ilə bağlıdır. Demokratik ölkələrin mütləq əksəriyyətində yalnız proporsional seçki sistemi mövcuddur. Azərbaycan ilk növbədə hələ postsovet məkanında və Şərqi Avropa ölkələrinin təcrübəsindən istifadə edərək demokratiyaya doğru inkişafa nail olmağa çalışmalıdır. Postsovet ölkələri dedikdə mən Ukraynanı, Gürcüstanı, Baltikyanı respublikaları nəzərdə tuturam. Proporsional sistem demokratiyanın atributlarından biridir, partiyaların inkişafına stimul verir. Majoritar sistemdə isə partiya inkişaf edə bilmir. Diqqət edirsinizsə, Azərbaycanda siyasi partiyaların zəifləməsi, siyasi sistemdə mövqelərinin azalması daha çox məhz proporsional seçki sisteminin ləğvindən sonra sürət götürdü".

**Həmsöhbətimiz onu da dedi ki, proporsional qaydada seçilmək millət vəkilinə daha çox hüquq verir. Proporsional seçki sistemi həm demokratikləşmənin inkişafı, həm də siyasi inkişaf və partiyaların siyasi həyatda iştirakı baxımından vacibdir:** "Çoxpartiyalı siyasi sistemlərdə baş aktyor partiyalardır, şəxslər deyil. Majoritar sistemdə isə fərdi keyfiyyətlər əsas götürülür ki, bunun da ümummilli məsələlərə elə də aidiyyəti yoxdur. Bütün bunları nəzərə alsaq, bəlli olur ki, siyasi partiyaların proporsional seçki sisteminin bərpasını istəməsi tamamilə məntiqlidir".

Qeyd edək ki, Azərbaycanda hazırda proporsional seçki sistemi mövcud deyil. Azərbaycan Konstitusiyasına görə, parlament və bələdiyyə seçkiləri majoritar qaydada keçirilir. Majoritar seçki sistemində ayrı-ayrı dairələrdən namizədliklərini irəli sürənlər səs çoxluğu ilə deputat mandatı qazanırlar. Azərbaycanın müstəqilliyi yenidən elan olunandan sonra proporsional seçki sistemi də tətbiq olunurdu. Amma 2002-ci ilin 29 avqustunda keçirilən referendumla proporsional seçki sistemi ləğv olunub. Bundan sonra parlament seçkilərinin ya tamamilə proporsional, ya da həm majoritar, həm də proporsional qaydada keçirilməsi təklifləri vaxtaşırı gündəmə gəlir.

Onu da bildirək ki, seçki sisteminin dəyişdirilməsi yalnız o halda mümkündür ki, qanunvericilikdə dəyişiklik həyata keçirilsin.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019

# Bu qış normal kommunal xidmət ala biləcəyikmi - rəsmi mövqe

## Dövlət qurumları payız-qış mövsümünə hazırlıq işlərini tamamlayır




**Yay mövsümü rəsmi olaraq başa çatmasa da, havalar artıq soyuyub, eləcə də paytaxta və rayonlara bir neçə dəfə güclü yağıntı düşüb. Kəskin dəyişən hava şəraiti kommunal sektordakı çatışmazlıqları da yenidən gündəmə gətirib. Ənənəvi olaraq bu dövrdə kommunal sahədə inhisarçı olan dövlət qurumları payız-qış mövsümünə hazırlıq işlərini sürətləndirirlər.**

"Yeni Müsavat" olaraq biz də aidiyyəti dövlət qurumlarının payız-qış mövsümünə hazırlıq işlərinin hansı vəziyyətdə olduğunu öyrənməyə çalışdıq.

**"Azəriqaz" İB-in mətbuat xidmətinin rəhbəri Ceyhun Səfərov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, payız-qış mövsümünə hazırlığa may ayından başlanıb:** "Bunun üçün xüsusi komissiya yaradılır və xüsusi qrafik hazırlanır. Bu qrafik əsasında, yay aylarında günün işıqlı saatları daha çox olduğu üçün, qazdan istifadə o qədər də çox olmadığı üçün dayandırmalara yol verilməklə müəyyən işlər görülür. Həm daşıyıcı kəmərlərin, həm də məhəlledaxili və paylayıcı kəmərlərin hamısının vəziyyəti nəzərdən keçirilir. Komissiyanın tutduğu qrafik əsasında mühəndislərimiz ərazilərə baş çəkirlər. Dayandırmalar əsasən 3 formada həyata keçirilir. Birincisi, qaz sızmalarının aşkarlanması üçün həyata keçirilən işlərdir ki, bu istənilən yerdə ola bilər. Çünki bəzi kəmərlərin istismar müddəti başa çatmaq üzrədir, müəyyən korroziyaya uğramış hissələri olur. Belə yerlərdə sızmaların baş vermə ehtimalı daha çoxdur. Onlar yoxlanılır və kəmərlərdə belə hallar baş verərkən dərhal dispetçer xidmətinə məlumat verilir. Bu məlumatlar əhali tərəfindən də verilə bilər. Dərhal əməkdaşlarımız hadisə yerinə ezam olunur və sızmaların qarşısı alınır. Yəni sızmaların bərpa olunması işləri icra olunur. Bu zaman dayandırmalara yol verilir. Digər tərəfdən, bu il dövlət proqramı icra olunur, 13 qəsəbə, 23 kənd, 56 yaşayış massivinin qazlaşdırılması işlərinə start verilib. İlin əvvəlindən başlayan bu işlərin noyabr ayında yekunlaşması nəzərdə tutulur. Bu işlər icra olunarkən qaz təminatında fasilələr olur, ancaq bunlar həmin ərazinin qaz xəttinə qoşulması üçün vacib faktordur. Biz 1 həftəlik işi eyni vaxtda icra etmirik, fasilələrlə ayrı-ayrı günlərə bölməklə icra edirik. Əvəzində isə hansısa yaşayış massivi qazla təmin edilmiş olur".

**C.Səfərovun sözlərinə görə, artıq bir neçə qəsəbədə qaz xəttinin açılışı baş tutub, digərləri də sıralama ilə həyata keçiriləcək:** "Eyni zamanda qaz xəttinə kənar müdaxilələrin qarşısının alınması üçün də iş aparılır, o da may ayından start götürüb. Bu işin icrası bu ayın ortalarında minimuma enəcək, dayandırmalar minimuma enəcək. Mənzil tikinti kooperativlərindən də binaların istismara qəbulu prosesi sürətləndirilib. Bu işin icrası da davam edir, sayğaclaşma işi Bakıda və Bakı ətrafında kütləvi şəkildə davam edir. Bakı şəhərində 128 mindən çox sayğac dəyişdirilib, nəticədə Gəncə Regional Qaz İstismar İdarəsinin ərazisində 62 mindən çox, Ağsuda 52 min ədəd, Salyan Regional Qaz İstismar İdarəsinin ərazisində isə 51 min ədəddən çox sayğacın dəyişdirilməsinə ehtiyac var. Bu sayğacların əksəriyyəti mexanikidir, istismar müddətini baş vurublar, onlar dəyişdiriləcək müasir smart tipli sayğaclarla əvəz olunacaq. Bu prosesi də sürətləndiririk ki, payız-qış mövsümünə qədər yekunlaşsın. Bu mövsüm ərzində 1100 kilometrdən çox qaz xətləri çəkilib, 408 kilometrdən çox qaz xətti təmir olunub".

**"Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, payız-qış mövsümünə hazırlıqlara başlanıb və sürətlə davam edir:** "Hazırda şəhərin müxtəlif ünvanlarında, yağış barmaqlıqlarının, kanalizasiya xətlərinin və baxış quyularının vəziyyəti öyrənilir, eyni zamanda onların təmizlənməsi həyata keçirilir. Artıq Nobel, Neftçilər prospektlərində, Zərdabi, Şərifzadə, Yusif Səfərov və digər küçələrdə bu işləri yekunlaşdırmışıq. Yağış barmaqlıqları, kanalizasiya xətləri qum-palçıq və digər bərk tullantılardan təmizlənir, xüsusi texnikalar vasitəsilə yuyulur ki, onların ötürücülük qabiliyyəti tam təmin olunsun. Bununla paralel olaraq, kanalizasiya nasos-stansiyalarının işçi vəziyyətini yoxlayırıq, təmirə ehtiyacı olan avadanlıqları təmir edirik, dəyişdirmək lazım gələrsə yenisi ilə əvəzləyirik. Bu istiqamətdə işlərimiz hazırda davam edir. Eyni zamanda bəzi ərazilərdə yağış sularının yığılmasının və subasma hallarını aradan qaldırılması üçün tədbirlər görülür".

**Normadan artıq yağıntılar zamanı, yağış sularının kanalizasiya xətlərinə dolub daşmasına gəlincə, A.Cəbrayıllı bunun kanalizasiya xətlərinin işləməməsi ilə bağlı deyil, onların sugötürməsi ilə bağlı olduğunu bildirdi:** "Bizim kanalizasiya xətlərinin axıcılığı, məsələn, 100 litrdir və adi şəraitdə bu kollektorun 60-70 faizi qədər məişət çirkab suları axır. Yağış intensiv olmayanda küçə və prospektlərdə formalaşan suları daşıya bilir. Ancaq leysan xarakterli yağışlar olanda bu kollektor tam dolur və yağış sularının bir qismi küçələrdə müəyyən müddətdə yığılıb qala bilir. Yağış kəsəndən cəmi 20-30 dəqiqə sonra həmi sular da kollektorla axıb gedir. Onu demək istəyirəm ki, kanalizasiya kollektorları və xətləri tam işləkdir, sadəcə, intensiv yağışlar zamanı suyun həcmi çox olduğundan onun bir hissəsi müəyyən müddət küçələrdə qalır. Əgər xətlər işlək olmasa, həmin sular adi yağışlar zamanı da küçələrdə yığılıb qalar. "Azərsu" ASC, Bakı Şəhər İcra Hakimiyyəti və AAYDA birlikdə bu istiqamətdə mütəmadi birgə iş aparır. Bilirsiniz ki, 2017-ci ildə 20 ünvanda yeni yağış-kanalizasiya kollektorları tikildi. Bu il də ilin sonuna kimi 5 belə layihə icra edəcəyik".

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli isə "Yeni Müsavat"a bildirdi ki, payız-qış mövsümünə hazırlıq işləri ilə bağlı xüsusi qərargah yaradılıb:** "2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq işləri çərçivəsində avtomobil yollarının və yol qurğularının istismarını, hərəkətin fasiləsizliyini və təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mərkəzi aparatında qərargah yaradılıb. Həmin qərargahda rayonlar üzrə təmsil olunan məhdud məsuliyyətli cəmiyyətlər var ki, 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və küçələrin qardan təmizlənməsi üçün tədbirlər planı təsdiq edilib. Agentliyin mərkəzi aparatında sutkalıq növbətçilik yaradılıb. sutkalıq növbətçilik mütəmadi olaraq avtomobil yollarında və yol qurğularına məlumatlar toplayacaq, o cümlədən respublikanın magistral yollarında, dağlıq və dağətəyi rayonlarda, Bakı şəhərinin avtomobil yollarında, prospekt və küçələrində operativ tədbirlərin görülməsi məqsədilə məlumatlar toplayacaq. Həmin məlumatlar aidiyyəti üzrə qeyd etdiyim MMC-lərə ötürüləcək. Həmin MMC-lər tərəfindən bu problemlərin aradan qaldırılması üçün işlər görüləcək. Yol texnikalarının, maşın mexanizmlərin, avtonəqliyyat vasitələrinin saz vəziyyətə gətirilməsi təmin edilir. Körpülərin vəziyyəti yoxlanılır, dağılmış hissələr bərpa edilir, körpüdə yerləşən ərazilərdə çay yataqlarının təmizlənməsi işləri həyata keçirilir. Yol nişanlarının, yol avadanlıqlarının, siqnal dirəklərinin texniki vəziyyətinə baxış keçirilir, yaranmış problemlərin aradan qaldırılması təmin edilir. Avtomobil yollarında cari təmir işlərinin aparılması, suötürücü boruların vaxtında təmizlənməsi əsas məsələlərdən biridir. Qumun və texniki duzun, yanacaq və tikinti materiallarının toplanması istiqamətində də işlər aparılır. Rayonlara hərəkət etdikdə sürücülər yol kənarında toplanmış qum və duz təpələrini də görə biləcəklər. Bakıda isə xüsusi qarajlarda toplanır və lazım olduqda maşınlarla ərazilərə gətiriləcək".

**"Azərişıq" ASC-dən isə mətbuata bildirilib ki, qurum qış mövsümünə hazırdır, yenidənqurma işləri mütəmadi şəkildə aparılır:** "Düzü, 5-10 il əvvəl payız-qış mövsümünə hazırlıq vardı. Artıq 24 saat istehlakçılar fasiləsiz işıqla təmin edilir. Bununla əlaqədar olaraq tədbirlər planımız var. Əvvəllər qışa görə narahat olunurdu. İndi isə elə yerlər var ki, yayda qışdan daha çox işıq sərfiyyatı olur. "Azərişıq"ın regionlarda apardığı yenidənqurma işləri bütün istehlakçıların vaxtı-vaxtında davamlı və keyfiyyətli enerji ilə təmin olunması üçündür. Bu işlər də mütəmadi olaraq davam etdirilir. Elə bir region yoxdur ki, orada yenidənqurma işləri aparılmasın. Hazırda səfərdə olduğumuz Şimal-qərb bölgəsində yarımstansiyalar inşa olunur, elektrik xətləri çəkilib, köhnə dayaqlar yeniləri ilə əvəzlənir və bu işlər davam etdirilir. Şimal, Mərkəzi Aran, Qərb, Cənub bölgələrində də hazırda yenidənqurma işləri davam etdirilir, hər bir ərazidə yarımstansiyalar inşa olunub. Həmçinin Bakı şəhəri və ətraf kənd, qəsəbələrində də işlər gedir. İlin əvvəlindən verilən materiallar, ayrılan elektrik verilişi xətləri, xüsusilə kabellərin hava şəraitinə davamlılığı, hər biri sistemləşdirilib. Bu haqda çox danışmaq olar, ümumi məlumat verdim ki, aparılan işlər bütün əraziləri əhatə edir".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# İqtidar və müxalifət birgə sənəd imzaladı

## “Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi” mövzusunda dəyirmi masa keçirildi, qarşılıqlı tənqidlər səsləndi

**Sentyabrın 11-də “Park İnn” hotelində “Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi” mövzusunda Ana Vətən Partiyasının təşkilatçılığı ilə dəyirmi masa keçirilib. Tədbirdə siyasi partiya, vətəndaş cəmiyyəti təmsilçiləri, media rəhbərləri və müstəqil siyasi ekspertlər iştirak ediblər.**

Tədbiri giriş sözü ilə açan deputat **F.Ağamalı** bu və digər səbəblərdən xaricə gedən, anarxist mövqe nümayiş etdirən, “mühacir müxalifət” adlandırılanların Azərbaycana qarşı mübarizə apardığını bildirdi. Onun sözlərinə görə, bu şəxslər ümidsizlik və qorxu hissi yaratmağa çalışırlar: “Ermənistandan Gəncəyə qədər tunel açıldığını deyirlər, ağızları köpüklənə-köpüklənə Azərbaycandakı müxalifəti aşağılayaraq, özlərini həqiqi müxalifət elan edirlər. Onlar bu dağıdıcı fəaliyyətləri ilə Ermənistanın dövlət maraqlarına xidmət etməkdədirlər. Sizin hər biriniz zaman-zaman Azərbaycanın milli maraqlarını hər şeydən üstün tutmusuz. Bu məsuliyyət hissindən çıxış edərək, öz iradəmizi ortaya qoymalı, Azərbaycan dövlətçiliyinin yanında olmalıyıq”.

**YAP-ın sədr müavini, partiyanın icra katibi Əli Əhmədov çıxışında bildirdi ki, ayrı-ayrı ölkələrin təcrübəsində bu və ya digər ölkələrin daxili işlərinə qarışmaq olub. Onun sözlərinə görə, bu, siyasi proseslər və seçkilər formaları içərisində daha çox tətbiq olunan hallardan biridir:** “Bu proses ölkə vətəndaşlarının, fiziki və hüquq şəxslərin maliyyəsi əsasında ola bilər. Ölkədə cərəyan edən bütün siyasət ancaq ölkə vətəndaşlarının iradəsi ilə reallaşa bilər. Bütün ölkələrdə bu normalar mövcuddur. Azərbaycana qarşı son dövrlər ərzində xaricdə mühacir qismində geniş fəaliyyət göstərən şəxslər peyda olub. Youtube kanallarının maliyyə qazanması imkanları onların izləyiciləri bir neçə milyon olandan sonra mümkün olur. Bir neçə on min izləyici hesabına maliyyə imkanları əldə edilməsi nağıllardır. Bu, əldə etdikləri vəsaitlərin mənbəyini gizlətmək üçün vasitələrdir”.

**“Tədbirə iştirakçıları dəvət edəndə ayrı-seçkilik salınmamalıdır”. Bu sözləri isə AXP sədri Pənah Hüseyn deyib.**

**Onun sözlərinə görə, bütün siyasi-ictimai nümayəndələr vaxtında dəvət olunmalı idi:** “Bunun müxalifətin daxilində bölücülük kimi qəbul edilməsinin qarşısı alınmalı idi. Azərbaycanda dövlət qeydiyyatından keçmiş bütün partiyalar dəvət olunmalı idi. İştirak etməyənlərin də məsuliyyəti öz üzərində qalsın. Azərbaycanda bir çox problemlər var. İqtidar tərəfindən qaldırılan problemlərdən biri iqtidaryönlü texnoloqların - ölkədə radikal müxalifətin olmasıdır. Amma mənim fikrimcə, hazırda ölkədə radikal iqtidar problemi var. İqtidarın müxalifətə, ictimai təşkilatlara qarşı neqativ mənada radikal münasibətindən danışmaq lazımdır. İndi haqqında danışdığınız, söyüş müxalifəti adlandırdığınız problemin kökündə iqtidarın apardığı radikal siyasət dayanıb. Bu görüş olarsa, qucaq açılarsa hamıya, bu zaman o söyüş müxalifətinin təsir effektivliyi qat-qat azalar. Bu problemin kökündə uzun illərdən bəri yeni müxalifət yaratmaq təbliğatının aparılması dayanır. Buyurun, bu da sizin yeni müxalifətiniz. Hamını narahat edən, mövcud olan o problemi siz yaratmısız. Yeni müxalifətiniz budur...”

**P.Hüseyn bildirdi ki, daha öncə köklü islahatlarla dəyişiklik layihəsi hazırlayarkən YAP rəsmilərini, Əli Əhmədovu, Siyavuş Novruzovu, Aydın Mirzəzadəni dəvət ediblər:** “Əvəzində sıfır reaksiya aldıq. Təklif etdik YAP qərargahına gəlib, müzakirə edib, araşdıraq. Etinasızlıq göstərildi. Nəticəsi onların apardığı siyasətin zərərinə oldu. Azad sözü onların üzünə bağlayacaqsız? Onlar da bir vasitə tapacaqlar. Qapıları alternativ fikirlərin üzünə açmaq lazımdır. Ölkədə sosial-iqtisadi islahatlar dərinləşməlidir”.

F.Ağamalı P.Hüseynin fikrinə cavab olaraq bildirib ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimlidən başqa hamıya dəvət göndərib.

ADP sədri Sərdar Cəlaloğlu tədbirin adı ilə bağlı məsələyə münasibət bildirdi. Dedi ki, seçki kimi siyasi proseslərə xarici qüvvələrin müdaxiləsi müsbət haldır.

**“Heç bir dövlətə, beynəlxalq təşkilata dövlətin işinə qarışmaq səlahiyyəti verilməyib”. Bu sözləri Ə.Əhmədov S.Cəlaloğlunun fikirlərinə etiraz olaraq səsləndirdi. Onun sözlərinə görə, beynəlxalq təşkilatlar seçkilərə müdaxilə edə bilməzlər:** “Bəli, müdaxilə edə bilməz, müşahidə edə bilər. Bütün məsələləri müzakirə etməyə çalışsaq, heç nəyə nail ola bilməyəcəyik. Qəlbimizdə olan bütün məsələləri bura tökmək istəyiriksə, bu, başqa məsələdir. 90-cı illəri hamımız xatırlayırıq. 30 il əvvəlki Azərbaycan indiki kimi idi? Neft pullarının xərclənməsi deyirsiniz. Bakının gözəlləşməsi, ölkənin inkişafı üçün sərf edilən vəsaitlər var”.

**Azəri Türk Qadınlar Birliyinin rəhbəri Tənzilə Rüstəmxanlı isə bəzi insanları itirməyin yolverilməzliyini, onları vətənə qazandırmağın vacibliyini bildirdi:** “Sosial media çirkabdır. Son 6 ayda ağzını açıblar bir kranın, Azərbaycanın əleyhinə yönləndiriblər. Tənqidin hamı tərəfdarıdır. Amma bu, təhqir mərhələsinə çatmamalıdır. Azərbaycandan kənarda bir cərəyan var. Əslində hədəf Azərbaycandır. Bunun üçün ən çirkli yollardan istifadə edirlər. Biz də buna etiraz edirik”.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu bildirib ki, ölkədə azğın məmurlara qarşı mübarizə aparılmalıdır:** “Onlar prezidentin reallaşdırdığı yaxşı işlərə kölgə salırlar. Siyasi məhbus məsələsi üzündən həmişə Azərbaycana təzyiq edirlər. Buraxın, getsin də onlar... Onlar üzündən ölkəmizə söz deyilməsin”.





**Hüquq müdafiəçisi qeyri-hökumət təşkilatlarının millətlə işlədiyini, hökumətin verdiyi qanunlar barədə rayonlarda danışdıqlarını bildirdi:** “O qrantları bağladınız. İndi xalqla necə işləyək? Xarici müdaxilə deyirsiz. Bir səfirlik bura dəvət edilməyib. Gəlsəydilər, görərdilər ki, iqtidar-müxalifət bir araya gəlib, ölkənin taleyüklü məsələlərini müzakirə edir. Xaricdən qrantları bağladınız. Getdilər, oradan söydülər. Buradan kim verir o məlumatları? Sizin içərinizdə olan insanlar. Biz haradan bilirdik ki, kimin harada nəyi var? Bu sirləri bilmirdik. Onlara pul verən, məlumatları çatdıranlar Azərbaycandakılardır”.





AĞ Partiyanın lideri Tural Abbaslı isə bildirdi ki, iqtidar-müxalifət arasında uçurumu təhlil etmək əvəzinə, hansısa blogerin təhqirini müzakirə etmək faydasız işdir.

**İctimai fəal, “Hilal” təşkilatının rəhbəri Arzuman Abdulkərimov da bildirdi ki, bəzi insanların iqtidarı dözümsüzlükdə ittiham etməsinə baxmayaraq, özləri müxalifəti tənqid edənlərə qarşı dözümsüzdülər:** “Etdiyim tənqidlərə görə məni blok ediblər. Niyə özləri tənqidə bu qədər dözümsüzdürlər? Ən çox tənqidlərə mən məruz qalmışam. Çünki ölkə prezidentini müdafiə edirəm”.

**Real TV-nin rəhbəri Mirşahin Ağayev isə 11 sentyabr tarixində terrorun ildönümü ilə üz-üzə olduğumuzu dedi:** “O hadisələr içində Azərbaycana qarşı xaricdən aparılan kampaniyanın adını terror elan etmişik. Burada siyasi terror var. İnterneti olan şəxslər mənə, ailəmə qarşı təhqirlərdən xəbərdardır. Onların nümunə götürəcəyi şəxs Məhəmməd Əmin Rəsulzadədir”.

**“Bu müzakirənin keçirilməsi vaxtında verilmiş bir qərardır”.**

**Bunu isə “Teleqraf Holdinq”in rəhbəri, əməkdar jurnalist Aynur Camalqızı deyib. O bildirib ki, Azərbaycana hər zaman xarici hücumlar olub:**

“Məncə, müzakirələrdən sonra ümumi qəbul edilən istiqamətlər üzrə birgə hərəkət planımızın da müəyyənləşməsi çox yaxşı olardı”. A.Camalqızının sözlərinə görə, xaricdəki anti-Azərbaycan qüvvələrin körüklədiyi bəlli blogerlər, yutuberlər ölkəmizə qarşı hücumları artırıblar.

Əməkdar jurnalist qeyd edib ki, ilk növbədə Azərbaycan həqiqətlərinin işğalına cəhdin qarşısını almaq lazımdır: “Ölkəmizə ənənəvi yollarla müdaxiləyə imkan tapmayanların virtual müdaxilələrinə qarşı informasiya siyasətimizi qura biləcək kifayət qədər kadr potensialına sahibik”.

**Dəyirmi masanın nəticəsində yekun sənəd qəbul olunub. Sənəddə aşağıdakılar qeyd olunub:**

“Biz, ”Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi" mövzusunda təşkil edilmiş dəyirmi masanın iştirakçıları olan siyasi partiyaların və vətəndaş cəmiyyətinin təmsilçiləri bu gün beynəlxalq aləmdə, o cümlədən regionda baş verən mürəkkəb və həssas prosesləri, real imkan və perspektivləri hərtərəfli müzakirə edərək, Azərbaycanın müstəqilliyinin, eləcə də dövlətçilik prinsiplərinin daha da möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması, taleyüklü məsələlərdə milli həmrəyliyimizin tam şəkildə bərqərar edilməsi, xalqımızın sosial rifah halının yaxşılaşdırılması, dövlətimizin iqtisadi və hərbi potensialının, beynəlxalq aləmdə nüfuzunun və təsir imkanlarının daha da gücləndirilməsi məqsədilə aşağıdakıları bəyan edirik:

*- Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının qısa müddətdə işğaldan azad edilməsi istiqamətində hərb yolu da daxil olmaqla, atılacaq addımları birmənalı şəkildə müdafiə edəcəyimizi bəyan edir;*

*- siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın ordu quruculuğuna və silahlı qüvvələrimizə hərtərəfli və birmənalı dəstəyinin zəruriliyini ifadə edir;*

*- ölkədə həyata keçiriləcək islahatları dəstəkləyir, ardıcıl və davamlı olmasını vacib sayır*

*- vətəndaş sülhü və milli həmrəylik istiqamətində birgə fəaliyyətin göstərilməsinin zəruriliyini nəzərə alaraq, siyasi mübarizədə etik normaları gözləməyə, milli-mənəvi və əxlaqi dəyərlərimizə zidd əməllərə yol verməməyə, eyni zamanda davamlı dialoq mühitinin yaradılmasına, sosial şəbəkələrdə, o cümlədən kütləvi informasiya vasitələrində təhqir, böhtan və şayiə xarakterli məlumatlar yaymamağa çağırır;*

*- respublikamızda keçirilən seçkilər zamanı bu prosesə beynəlxalq hüquqa zidd hər hansı xarici müdaxilənin yolverilməz olduğunu xüsusi vurğulayır və belə müdaxilə cəhdlərinə qarşı birgə fəaliyyəti zəruri saydığımızı bildiririk.*

**Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019



# “Mübariz İbrahimov adına stansiya” təklifinə reaksiyalar gəldi

**Sosial şəbəkələrdə Milli Qəhrəman Mübariz İbrahimovun adının Hərbi Hospitalın önündə açılacaq yeni metrostansiyaya verilməsi ilə bağlı kampaniya başladılıb. Kampaniya kifayət qədər effekt doğurub. Kampaniya daxilində metrostansiyalara adların hansı qurum tərəfindən verildiyi yönündə müxtəlif mülahizələr səsləndirilir.**







**Bəxtiyar Məmmədov:** “Bakı Metropoliteni ad qoymaq səlahiyyətinə malik deyil”
**Fərəc Quliyev:** “Bu məsələni Milli Məclisdə qaldıraram”
**Rey Kərimoğlu:** “”Şəhidlər” stansiyasının olması da mümkündür..."

**“Bakı Metropoliteni” QSC mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov** belə bir səlahiyyətin onlara məxsus olmadığını söylədi: “Stansiyalara ad vermək yalnız Nazirlər Kabinetinin səlahiyyətindədir. Yəni qərarı onlar açıqlayırlar. Eyni zamanda depoların adını da onlar verir. Nazirlər Kabineti yanında adqoyma komissiyası var. Ad verilməsi və təkliflərin irəli sürülməsi ancaq onların səlahiyyətindədir. Amma onu da qeyd edim ki, təkliflər səsləndiriləndə Bakı Metropolitenindən müəyyən fikirlər soruşulur. Amma səlahiyyət mütləq şəkildə Nazirlər Kabinetindədir”.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev təklifi dəstəklədi:** “Mübariz şəhidlərin simvoludur. Bir şəhidin adına yer verilsə, bu təkcə ona aid deyil. Onların hər biri layiqdir ki, adlarına küçələr, metro, universitet adları verilsin. Düşünürəm ki, Mübarizin adına stansiya olarsa, şəhid ailələri, ümumiyyətlə, heç kəs düşünməz ki, niyə bu ad verildi. Şəhidlər hamımızındır. Mübariz İbrahimov savaşda nümunə göstərən, düşmən üzərinə təkbaşına yeriyən və şəhid olan kişidir. Ad verilsə, bu onun hərəkətinə verilən qiymət olacaq. Biz təkcə ölməyə deyil, həm də öldürməyə hazır olan millətik. Simvolik olaraq onun adının bir yerə verilməsi çox normal olardı. Başqa şəhidlərimizin adlarına küçələr verilir, büstləri qoyulur, başqa müsbət addımlar atılır. Bu həm də şəhidlərə verilən yüksək qiymətdir. Ehtiyac olarsa, bu məsələni Milli Məclisdə qaldıraram”.

**Deputat milli qəhrəmanların hamısını özündə birləşdirən stansiya adının olmasının doğru olduğu yönündə fikirlərimizi dəstəklədi:** “”Milli qəhrəmanlar” stansiyası qeyd etdiniz, bu daha çox ağlıma batdı. Bu daha möhtəşəm hal olardı. Amma Mübariz bəyin adının metrostansiyaya verilməsi təklifləri o biri fikirlərə alternativ kimi səslənməli deyil".

**Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu fərqli mövqeyə sahibdir:** “Bizdə keçmiş qəhrəmanların adına metro stansiyaları var. Bütün hallarda bu təklif həyata keçsə, çox yaxşı olardı. İdeya çox gözəldir. Şəhidlərin, qəhrəmanların adlarının nəinki metrostansiyalara, küçələrə, prospektlərə və digər yerlərə verilməsi çox vacibdir. İllərdir bundan inciyik ki, bu istiqamətdə ciddi addımlar nə üçün atılmır. Onu da demək vacibdir ki, Azərbaycanda Mübarizdən az qəhrəmanlıq etməyən kifayət qədər qəhrəmanlarımız var. Məsələn, niyə Allahverdi Bağırovun adına metrostansiya olmasın? Yaxud nə üçün Yusif Mirzəyev olmasın? Əliyar Əliyevin də adını çəkmək mümkündür. Hər kəs bu ideyanı alqışlamalıdır. Amma kimin adının verilməsi açıq şəkildə müzakirə edilməli, ictimaiyyət buna rəy verməlidir. Hər halda, 5-6 nəfərin adını təklif edə bilərik. Qarabağda qəhrəmanlıq edən adamlar çoxdur. Onların içərisindən elələri var ki, adları ortalıqda yoxdur. Rauf Orucovun heç bir adı yoxdur. Niyə onun adına stansiya verilməsin? Pəncəli Seymurovun adını da çəkə bilərəm ki, o, çox böyük qəhrəmanlıqlar göstərib. Yusif Mirzəyev 14 nəfərlə bütöv bir rayonu qoruyub. Ona Milli Qəhrəman adı verilib. ”Milli Qəhrəmanlar” stansiyası ola bilər. “Şəhidlər” stansiyasının olması da mümkündür. 215 Milli Qəhrəmanımız var. Hamısının da fotosu həmin stansiyaya vurula bilər. Belə olanda ayrı-seçkilik də olmur. Mənim təklifim budur..."

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# “Hərbi əməliyyatlara başlamamağımız ermənilərə güzəştdir”

## Akif Nağı: “25 ildir ermənilərə güzəşt edirik, bəsdir”

**ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri, Atlantik Şuranın analitiki, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza Qarabağ danışıqlarının perspektivləri barədə danışıb. O deyib ki, Nikol Paşinyanın qəribə bəyanatlarından sonra Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin danışıqları davam etdirməsi olduqca vacibdir. M.Brayza qeyd edib ki, Ermənistan baş nazirinin bəyanatları bir-birinə ziddir: “Nikol Paşinyan öncə Ermənistan və Dağlıq Qarabağın vahid, daha sonra isə Dağlıq Qarabağın müstəqil olduğunu bəyan edib. Ermənistan hökumətinin yeni mövqeyi ilə məzmunlu danışıqlar aparmaq qeyri-mümkündür. Bu mövqe Azərbaycan üçün də tamamilə qəbuledilməzdir. Mediator olsaydım və Ermənistan yeni mövqeyində qalsaydı, buna aydın etiraz edib istefa verərdim. Belə ki, bu mövqe ilə irəliləyiş əldə etmək mümkün deyil. Bu, həmçinin ədalətli deyil”.**



M.Brayzanın sözlərinə görə, Dağlıq Qarabağın yekun son hüquqi statusu danışıqlar yolu ilə razılaşdırılmalıdır: “Danışıqlar prosesində bir tərəf fayda əldə etmək üçün nəyisə güzəştə getməlidir. Əgər hansısa tərəf istədiyi hər şeyi əldə etmək üçün güzəştə getməyəcəyini deyirsə, bu, sadəcə, doğru deyil”.

M.Brayzanın açıq da olmasa Azərbaycanı da tərəf kimi güzəştə getməyə çağırması birmənalı qarşılanmır. Ekspertlər hesab edir ki, Qarabağ münaqişəsi və Ermənistanın haqsız mövqedə olması barədə ətraflı bilgiyə malik diplomatın Azərbaycan tərəfini də dolayısı ilə güzəştlərə çağırması absurddur. Brayzanın işğalçı ilə işğala məruz qalan tərəf arasında balans saxlaması təəccüblüdür.

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bu barədə “Yeni Müsavat”a bildirdi ki, Metyu Brayzanın Paşinyanın mövqeyini tənqid etməsi müsbətdir və haqlıdır. Lakin Azərbaycanı da güzəştə getməli olan tərəf kimi nəzərdə tutması məntiqsizdir:** “Metyu Brayza əvvələr də qeyri- stabilliyi ilə fərqlənirdi. Gah Azərbaycanın obyektiv mövqeyini müdafiə edir, gah da anlaşılmaz açıqlamalar verir. İndi də onun Qarabağ məsələsinin həlli üçün qarşılıqlı güzəşt məsələsinin vacibliyini dilə gətirməsi absurddur. Azərbaycanın torpaqları işğal altındadır, nəyi güzəştə getməliyik?! Azərbaycan artıq güzəştini 20 ildən çoxdur edir-25 ildir atəşkəsə razı olmağımız, hələ hərbi əməliyyatlara başlamamağımız ermənilərə güzəştdir. 25 ildir ermənilərə güzəşt edirik, bəsdir”.

Azərbaycan tərəfini də güzəştə çağırmaq kimi yanaşma Ermənistanın işğalçı rolunun arxa plana keçirilməsi cəhdidir. Ermənilər buna çalışırlar ki, guya işğal faktı olmayıb, Azərbaycanla Ermənistan nəyisə razılaşdırmalıdırlar. Bunlar hamısı ermənilərin uydurmalarıdır. Paşinyan da son vaxtlar deyir elə variant olmalıdır ki, Ermənistanı, Dağlıq Qarabağı, Azərbaycanı razı salsın. Bunu özünün böyük “kəşfi” kimi təqdim edir. İndi Brayza da ermənilərin bu oyunlarına uyğun açıqlamalar verirsə, təəssüf edirik".

**A.Nağı bəyan etdi ki, Azərbaycanın güzəştə getməyə yeri yoxdur, erməni silahlı birləşmələri torpaqlarımızdan çıxsınlar, ondan sonra güzəştlər haqqında danışaq:** “Məncə, Azərbaycan diplomatiyası belə mövqedən çıxış etməlidir ki, güzəştlər barədə söhbət Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən, Dağlıq Qarabağ və ətraf rayonlardan çıxarılandan sonra başlanıla bilər”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**



# Komitə köçkünlərə ödənilən müavinətin artırılacağına dair xəbərlərə münasibət bildirib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi bəzi kütləvi informasiya vasitələrində məcburi köçkünlərə dövlət büdcəsindən ödənilən vahid aylıq müavinətin məbləğinin yenidən artırılacağı haqqında yayılan məlumatlara aydınlıq gətirib.**

Komitədən APA-ya bildirilib ki, ölkə vətəndaşlarının, o cümlədən məcburi köçkünlərin maddi rifahının yüksəldilməsi, sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin sosial siyasətində prioritet istiqamətlərdəndir.

“Dövlətimizin başçısı məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə ”Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında" 26 fevral 2019-cu il tarixli sərəncam imzalayıb. Sərəncama əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılıb. Həmin vaxtdan etibarən, fərdi qaydada sayğacların quraşdırılması və texniki istismarı mümkün olmayan, habelə təbii qazla təmin edilməyən sıx müvəqqəti məskunlaşma yerlərində faktiki yaşayan məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər 33 manat, bu kateqoriyaya aid edilməyən məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər isə 60 manat məbləğində vahid aylıq müavinət alırlar", - deyə komitənin məlumatında qeyd edilib.

Dövlət Komitəsi xatırladır ki, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinət 1 yanvar 2017-ci ildən tətbiq olunur: “Hazırda Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vahid aylıq müavinətin məbləğinin yenidən artırılacağına dair məlumat yoxdur”.

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019

**Azərbaycanda hakimiyyətlə siyasi qüvvələr arasında dialoq, aktual mövzuların bir araya gələrək müzakirə edilməsi təcrübəsi var. Son illərdə bu təcrübənin ən parlaq və geniş müstəvini əhatə edən nümunəsi kimi 2015-ci il parlament seçkiləri öncəsi hakimiyyət təmsilçisi ilə siyasi partiyaların rəhbərləri arasında arda-arda keçirilən görüşləri xatırlamaq kifayətdir. Hər kəsin müsbət qiymətləndirdiyi o zamankı dialoq prosesi nədənsə sonradan dayandı. Dünən isə YAP, iqtidaryönlü partiyalar və bir qrup müxalifət təşkilatlarının "Park İnn" hotelində "Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi" mövzusunda geniş tərkibli dialoqu keçirilib.**

# İqtidar-müxalifət dialoqunun başlanması üçün şans

## Müxalifət dialoq üçün seçkilər mövzusunu təklif edir


Əli Orucov


Sərdar Cəlaloğlu

Hakimiyyət təmsilçiləri və YAP rəhbərliyinə daxil olan şəxslər digər milli məsələlər ətrafında müxalifətlə dialoqa hazır olduqlarını bəyan edirlər.

Prezidentin köməkçisi Əli Həsənovun, YAP icra katibi Əli Əhmədovun bir neçə gün öncə açıqlamalarında hakimiyyətin və hakim partiyanın müxalifət partiyaları ilə dialoqa, əməkdaşlığa həmişə hazır olduğunu bəyan etmələri də ciddi bir dialoq prosesinin başlanmasına ümid yaradıb.

Bəs iqtidar-müxalifət dialoqunun bütün müxalifətin də iştirakı ilə seçkilər mövzusunda keçirilməsinə də ehtiyac varmı?

**AMİP katibi Əli Orucov "Yeni Müsavat"a bu mövzuda açıqlamasında bildirdi ki, iqtidar-müxalifət dialoqunun keçirilməsi üçün kifayət qədər aktual mövzular var. Ölkədəki mövcud durumdan tutmuş, Dağlıq Qarabağ problemlnədək istənilən mövzunun, həmçinin seçkilər məsələsinin müzakirəsi faydalı olardı:** "Dialoq da iqtidara lazım olandan olana deyil, davamlı olmalıdır. Hakimiyyət düşərgəsində bəziləri siyasi opponentlərinə qatı düşmən kimi yanaşır. YAP-çı deputat Eldar İbrahimov onların müxalifətə olan baxışlarını bir daha net şəkildə ortaya qoydu. Bundan sonra sivil münasibətlərdən danışmaq, bir masa ətrafında müzakirələr aparmaq heç də asan deyil. Sentyabrın 11-də keçirilən tədbir adından da göründüyü kimi, "Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi" mövzusundaydı. Biz də ölkəmizdəki siyasi proseslərə xarici müdaxilələrin yolverilməz olduğu qənaətdəyik. Bizə dəvət tədbirdən bir gün əvvəl günün sonuna yaxın gəldiyindən və yenidən Siyasi Şurada müzakirəyə çıxarılması mümkünsüz olduğundan tədbirdə iştirak edə bilmədik. Lakin buna baxmayaraq, hesab edirəm ki, təşəbbüs pis təşəbbüs deyil. Siyasi düşərgələr arasında müəyyən əlaqələrin və dialoq mühitinin yaradılmasında, problemlərin birbaşa qabardılmasında müsbət rol oynaya bilər. Ümid edirəm ki, bu cür tədbirlər nəticə etibarı ilə ölkədəki qarşıdurmanın yumşaldılmasında və cəmiyyətdəki gərgin emosiyaların azaldılmasında öz töhfələrini verəcək. Ona görə də ilk növbədə iqtidar mənsubları etimad mühitinin yaradılması üzərində düşünməlidirlər ki, siyasi qüvvələr də ciddi və nəticəli müzakirələrin aparılacağına inanıb istənilən mövzunun müzakirəyə çıxarıldığı dialoqda həvəslə iştirak edərək öz töhfələrini versinlər. Ola bilsin hakimiyyət dünyada və regionda gedən prosesləri, ölkə və hakimiyyətdaxili vəziyyəti diqqətə alıb çıxış yollarının aranmasına başlayıblar. Günü-gündən artan xarici təhdidləri, xüsusilə də radikalizmi artıq görüb və bunun həm ölkə üçün, həm də özləri üçün ağır nəticələr doğuracağını getdikcə anlamaqdadırlar. AXP, BAP və AMİP olaraq bizim də bu yaxınlarda hökumətə təqdim etdiyimiz islahatlar paketində məhz bu çıxış yolları göstərilib".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, cəmiyyətdə siyasi qüvvələr arasında dialoqa hər zaman ehtiyac var. Amma bu dialoq imitasiya xarakteri daşımamalı, mövcud olan problemlərin həllinə kömək etməlidir:** "Hakimiyyət təmsilçiləri də, müxalifət də atılan hər bir addımda yalnız xalqın və dövlətin maraqlarını nəzərə almağa borcludurlar. Ölkədə siyasi mühitin yumşaldılması, siyasi azadlıqların bərpa edilməsi, ölkədə vətəndaş sülhünə nail olunması və iqtidar-müxalifət münasibətlərinin sivil bir müstəviyə daşınması istiqamətində addımlar atılmalıdır. İlk növbədə ölkədə siyasi partiyaların təsir imkanlarının artırılması zərurəti var. Biz 10 ildən artıqdır real, ciddi, nəticəli dialoq çağırışlarını edirik. Bu istiqamətdə 2007-ci ildə partiyamızın konkret rəsmi qərarı da olub. İqtidar-müxalifət dialoqu üçün kifayət qədər aktual mövzular var. Onlardan biri də seçkilərdir. Hakimiyyət istəsə bu mövzunun müzakirəsi keçirilə bilər.

Azərbaycanın daxil olduğu regionda geosiyasi vəziyyətin getdikcə gərginləşməsi, Qarabağ məsələsinin daha da aktuallaşmaqda olduğu bir vaxtda hakimiyyətlə müxalifət arasında dialoqa, konstruktiv münasibətlərin qurulmasına ehtiyac var. Konstruktiv münasibətlərin qurulması üçünsə ilk növbədə siyasi qüvvələr arasında dialoq mühiti ilkin şərtdir.

Unutmayaq ki, iqtidarın müxalifəti nəzərə almadığı hər bir ölkə kənardan törədiləcək istənilən təxribatlara açıq olur. Dialoq, islahat, milli barışıq və inkişaf ölkəni xaosdan, təxribatlardan immunitetli ölkə halına gətirir. Biz ölkəmizin güclü immunitetə malik ölkə olmasını hər zaman istəyirik".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

---

# 500 min avronu necə etdim...



**Samir SARI**

**Dün gecə əlimə 500 min avro pul düşmüşdü. Hamısı da dəzgahdan təzə çıxmış, yeni təzə kəsilib banderollanmış, yağ iyi verən əsginaslar idi, ötən il Alanyada Ramiq adlı "Dvadsatı" uşağından aldığım qəhvəyi çantaya yığmışdım.**

Bu pulu mənə bankların birindən kredit olaraq vermişdilər və bir neçə sənədə qol çəkmişdim. İntəhası, pul özümə məxsus deyildi, əmanət idi, yiyəsi gəlib aparmalıydı.

Yaxın adamlar tezcənə bu 500 mini ikiyə vurub dedilər ki, bizim pulla bir milyon eləyir, ağlın olsun, heç kəsə vermə. Dedim, yox, əmanətdir, əmanətə xəyanət olmaz, yiyəsi gəlib aparacaq.

Bir simsar adam dedi ki, pulu sən almısan, sənin adına alınıb, verəcəksən, xərcləyəcəklər, sonra düz bir milyon manat borcun olacaq, verə bilməyəcəksən, tutub salacaqlar Cahangir Hacıyevin yanına.

Düzü, bu söz ağlıma batdı. Doğrudan da necə ola bilər, öz adıma götürdüyüm 500 min avronu niyə başqasına verim.

Dedim, qardaşlar, mənim adıma pul götürən adamlar elə-belə adamlar deyillər, mən bu pulu onlara qaytarmasam, cinayət törədərlər.

Dedilər, əlində bu qədər pulun var, çıx aradan, qaç gizlən, yaşa də, bu saat xaricdə camaata pul atıb qaçan N qədər adam var. Biri dedi: "Avropaya get, Almaniyaya sığın, sənə sığınacaq verərlər". Etiraz etdim: "Yox, onlar bu pulun mənşəyini soruşacaqlar".

"Elə isə İngiltərəyə get, ingilislər oğurluq pulların mənşəyini soruşmurlar, sığınacaq verərlər" - deyən adamın sözü ağlıma batdı. Fikirləşdim ki, doğrudan da dünyanın bütün korrupsioner milyonçuları pullarını Londona daşıyırlar, mənim onlardan nəyim əskikdir, bir halda ki, əlimə bu qədər pul düşüb, niyə onu Manşesterdə, Liverpulda xərcləməyim.

Ancaq başqa bir yaxın adam dedi, küyə getmə, ingilislərə etibar yoxdur, onlar səni öz ölkələrinə qəbul edəcəklər, amma sonra Zamirə Hacıyevanın, rus oliqarxlarının gününə qoyacaqlar, fırladıb pulunu əlindən alacaqlar.

Doğru sözə nə deyəsən. Yadıma düşdü ki, bu barədə çox qəzet yazısı oxumuş, hətta bir neçəsini də özüm yazmışam.

Kimsə pulları götürüb Rusiyaya qaçmağı təklif etdi, amma bu variant da vuruldu. Bir yaxın adam dedi ki, başqa oğrulara ağlın getməsin, burda hindən toyuq oğurlayan və Rusiyaya qaçan adamı Xabarovskdan belə tutub gətirirlər, səni 500 minlə göydə tutarlar, aeroporta enməyə qoymazlar.

"Türkiyəyə get, Antalyada biznes qur" deyən dostumun sözünü ən ağıllı təklif kimi dəyərləndirməkdəydim ki, qəfildən külək əsdi, ağzı açıq çantadakı pulları havaya sovurdu. Ya bu hadisənin şokundan, ya da küləyin vıyıltısından dik atıldım. Doğrudan da külək bərk əsir, bərk də vıyıldayırdı, amma Ramiqdən aldığım qəhvəyi çanta evin bir küncündəydi və içində də pul yox, paltar-palaz vardı.

Ağlıma gələn ilk fikir bu oldu ki, mən nədən bu cür kriminal yuxular görürəm. Dərhal da niyəsi yadıma düşdü. Yatmazdan əvvəl pul dolu çantaların əldən-ələ keçməsinə dair kriminal detektivə baxmışdım, bir də camaatdan pul alıb qaytarmayan lombardçılarımıza dair xəbər oxumuşdum. Heç demə, şüuraltında izahedilməz proses gedib və hər iki epizodun təəssüratı gəlib mənim yuxumda birləşib.

Deyim ki, çox aydın yuxuydu. O qədər aydınlıq yalnız həyati yaşantıda olur.

Ən pisi odur ki, yuxuda belə hadisələr "kasıb pul tapdı, qoymağa yer tapmadı" ssenarisi çərçivəsində getdi.

Bir də indi çox pulu olan adamların keçirdiyi stressi anlayıram. Onlar bu pulun oğurluq olduğunu, kimisə aldatmaq, kiməsə atmaqla əldə olunduğunu bilirlər və tezliklə əllərindən çıxacağından qorxurlar. 7-8 dəqiqəlik yuxumda belə o təlaşı hiss etmək olur.

Bizim bir çox varlıların ölkədə yağmaladıqları, taladıqları pulları can hövlü ilə ölkədən-ölkəyə daşımağa çalışmalarının sirri də bundadır.

Tərs kimi, indiki dövrdə də etibarlı ölkə yoxdur. Hərəsinin bir minusu var, yüz cür oyun oynayırlar və adamın pulunu əlindən alırlar.

Bir sözlə, bu yuxunu qorxulu yuxu, kabus görmək hesab etmək olar. Ayılana qədər məndəki əsas hiss o idi ki, snayper nişangahındayam, indicə vuracaqlar.

İndi görün, real həyatda 5 milyonu, 500 milyonu, 5 milyardı olanlar nə çəkir. Yazıqlar...

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019



# Xarici problem

Zamin HACI
zaminhaci@gmail.com

“Çıxış yoxdur” yazısındansa “Giriş qadağandır” yazısına üstünlük verərdim”
*(Stanislav Yeji Lets)*

**Deyir yenə dövlətçiliyimizə xaricdən nəsə təhlükə yaranırmış, iqtidarla müxalifət əl-ələ, qol-qola verərək dünən dəyirmi masa keçirmiş, bu təhlükəni sovuşdurmuşlar. Bizə məlum deyildir təhlükə konkret nədən ibarət olubdur. Əgər söhbət ancaq internetdə “10 min dollar alıb söyənlər”dən, ermənipərəst qara qüvvələr və onların dəyirmanını işlədənlərdən gedirsə, bizə heç zad eləyə bilməzlər, ölkəmizin təkcə hərbi büdcəsi Ermənistanın ümumi büdcəsindən çoxdur. Eyni zamanda bu xarici təhlükə nə məsələdirsə azı yüz ildir ölkəmizin başı üzərində fırlanır, vaxtaşırı peyda olur. Hələ biz SSRİ tərkibində olanda lap şiddətli şəkil alırdı. Yəqin ki, özünə hörmət qoyan hər bir dövlətçiliyin mütləq üç-dörd dənə xarici təhlükəsi olmalıdır. Necə deyərlər, kişinin düşməni olar. Bunun başqa variantı da var: “Əgər sənin kürəyinə tüpürürlərsə, deməli, sən onlardan qabaqdasan”. Hərçənd adamı çalaya yıxıb da belinə tüpürmək olar, ancaq biz bu variantı milli mənəviyyatımıza yad olduğu üçün öncədən rədd edək getsin.**

Adam arzu edir ki, kaş heç bizim xaricimiz olmayaydı, elə ancaq daxildən ibarət olaydıq. Hər yanımız daxil olsa, xərc də çıxmazdı, adından göründüyü kimi, nə olsa içəri verərdik. Ancaq nə edəsən, hələlik dünyada xarici olmayan dövlət yoxdur. Amerikanın, Rusiyanın, Almaniya, Fransa, Britaniya, Çin kimi hegemon dövlətlərin də hərəsinin öz xarici vardır. Daxilimizə nisbətən xaricimizdə problemlərin olması elə bu zırpı dövlətlərin günahıdır. Dünyanı yaxşı işlədə bilmirlər. Versələr biz işlətsək...

O cümlədən, xarici işlər idarəmizin, başda Elmar müəllim olmaqla, günahı böyükdür. Niyə onlar bizim daxildə yaratdığımız sabitlikdən xaricdə yaratmırlar? O boyda etimad göstərilib, 20 ildir nazirdir, hələ bir xaricin barmağına... dərman eləməyibdir. Hara baxırsan xarici pis gündə görürsən. Nəticədə ölkəmizin daxildəki gözəllikləri, imici korlanır. Elə bil qızıl-gümüş oboylu ev tikirsən, çöl divarına isə təzək yaxırsan. Cansıxıcı dizayndır. Əli İnsanovun villasına oxşayır.

Avropa Şurası Parlament Assambleyasının müdiri Lilian xanımın məhz müxalifət-iqtidar görüşü günündə Bakıya səfər eləməsi də maraqlı, məzmunlu, sevindirici, ürəkaçan, səmimi, xoşhal, ləzzətli, şövqlü, zövqlü alındı. Düzdür, bizdə iqtidar-müxalifət dialoqu onsuz ilin 370 günü davam edir, sadəcə format bir az fərqli olur. Bir tərəf döyür, o biri tərəf söyür, belə bir dialoq gedir. Sözümün canı odur ki, Lilian xanım haçan gəlsə belə dialoqun üstünə çıxması şübhəsiz idi. Səfər həmçinin Avropa Şurasının 70 illiyi münasibətiylə Bakıda keçirilən “Bizim hüquqlarımız, bizim azadlığımız, bizim Avropamız” adlı beynəlxalq konfransda iştirak üçündür. Azərbaycan bu 70 ilin hardasa 20 ilini Avropa Şurası ilə birgə keçiribdir və gördüyünüz kimi, artıq orada çox şey bizə məxsusdur. Məncə konfransı təşkil edənlər təvazökarlıq eləməsə oraya “... bizimdir, bizimdir, Kəlbəcər də bizimdir” şüarını əlavə edərdilər. Avropa Şurasına üzv olduğumuz müddətdə hüquq və azadlıqlarımız həddindən artıq genişlənmişdir. Məsələn, mənim yadıma gəlir, 90-cı illərdə biz hamamda çimə bilmirdik, gecələr tualetə getmək olmurdu, neçə nəfəri öldürmüşdülər. İndi isə hər yanda dialoq, dostluq, qardaşlıq, müzakirə, mücadilə, mübarizə, müsamirə vardır! Şair demişkən: “Mübarizə bu gün də var, yarın da, AYB sədri həmişə Anar olsun!”

Sonda bir daha əlaqədar orqanlardan xahiş edirik bu xaric məsələsinə bir əncam çəksinlər. Bəlkə ölkəmizi astar üzünə çevirək, xaric daxil olsun. Xalq şairi Ramiz Rövşənin şeirindəki kimi: “Şalvarımı, pencəyimi çevirdim astar üzünə, Gülə-gülə çıxdım dostlar üzünə”.




**Ermənistan parlamenti sentyabrın 11-də “Rus NATO-su” kimi tanınan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) nizamnaməsinə dəyişiklikləri nəzərdə tutan protokolları ratifikasiya edib. “Yeni Müsavat”ın erməni qaynaqlarına istinadən verdiyi məlumata görə, xarici işlər nazirinin müavini Şavarş Koçəryan bildirib ki, düzəlişləri həm də Ermənistandakı siyasi sistem dəyişikliyi zəruri edib, çünki ölkənin rəhbəri artıq prezident yox, baş nazirdir.**

Ermənistan parlamentinin təsdiqlədiyi başqa bir protokol “Rus NATO-su”na

# İrəvan Bakının “Rus NATO-su”na yolunu açdı - Putinin təhdidi

## Ermənistan parlamenti KTMT yanında müşahidəçi statusu nəzərdə tutan sənədi ratifikasiya etdi; işğalçı ölkənin parlamentində anti-Rusiya çıxışları - Paşinyan hökuməti Kremldən həm qorxur, həm də qorxutmağa çalışır...

üzv olmayan dövlət və digər beynəlxalq təşkilatlar üçün bu qurum yanında müşahidəçi statusunu nəzərdə tutur. Həmin protokola görə, müşahidəçi ölkə və təşkilatlar KTMT-nin fəaliyyəti ilə daha yaxından tanış olmaq imkanı əldə edə, qurumun hərbi-siyasi tədbirlərini izləyə, həmçinin hərbi-texniki əməkdaşlıq imkanları qazana bilərlər. O sırada ortaq təlimləri izləmək və orada iştirak hüququ da var.

Yada salaq ki, Rusiyanın dominant olduğu bu hərbi blokun nizamnaməsinə son dəyişikliklər qurumun keçən ilin noyabrında Qazaxıstanın paytaxtı Astanada (Nur-Sultan) keçirilən sammitində bilavasitə Rusiya prezidenti Vladimir Putinin təşəbbüsü ilə qəbul edilib. Qalırdı onun üzv ölkələrin parlamentləri tərəfindən ratifikasiya olunması. Ermənistan onların arasında sonuncu idi.

*****

Bir sıra təhlilçilərə görə, Moskva bu dəyişiklikləri ilk növbədə Azərbaycan üçün nəzərdə tutub. Yəni bu yolla Bakını tədricən “Rus NATO-su”na üzvlüyə şirnikləndirmək və Qərbin siyasi-hərbi bloklarından, xüsusən də qardaş Türkiyənin üzv olduğu NATO-dan uzaq saxlamaq hədəfi güdülür. Bundan ötrü müşahidəçi dövlət statusuna qarşılıq olaraq Rusiyadan Azərbaycana silah-sursatların daha ucuz qiymətə satılması da nəzərdə tutulur.

İşğalçı ölkəni əndişələndirən həm də bu idi. İrəvanı əlavə olaraq, Bakının KTMTdaxili durumdan daim xəbərdar olması və bu duruma və üzv ölkələrə müşahidəçi dövlət kimi daha güclü təsir göstərmək imkanı əldə eləməsi də qayğılandırırdı. Onsuz da Azərbaycanın Ermənistan xaric, KTMT üzvləri arasında nüfuzu işğalçı ölkədən - onun üzvündən güclüdür. Bunu 2016-cı ildəki “4 günlük” aprel savaşı da göstərdi. Ermənilər özləri də bu nüfuz fərqini etiraf edirlər.

Lakin direktiv “ən yuxarı”dan - Moskvadan gəldiyi üçün Ermənistan protokolları təsdiq eləməli oldu və bununla da Bakının “Rus NATO-su”na yolunu açmış oldu. Ancaq Bakı “Rus NATO-su”na can atmır və hələlik müşahidəçilik məsələsinə dair mövqe bildirməyib. Üzvlüklə bağlı isə Azərbaycanın prinsipial mövqeyi belədir ki, Qarabağ məsələsinin həllində ciddi irəliləyiş olmayınca işğalçı ölkə ilə eyni hərbi blokda təmsilçilikdən söhbət gedə bilməz. Odur ki, “top” İrəvanın, daha doğrusu, onun sahibi Moskvanın meydanındadır.

*****

**Moskva-İrəvan münasibətləri isə “məxməri inqilab”dan sonra heç də isti dövrünü yaşamır - tərəflər bunu gizlətməyə çalışsalar da. Elə KTMT nizamnaməsinə dəyişiklikləri ehtiva edən sənədin ratifikasiya edildiyi gün Ermənistan parlamentində anti-Rusiya, anti-Putin çıxışları səslənib. Belə ki, “Yeni Müsavat” Rusarminfo-ya istinadən bildirir ki, deputat Arman Babacanyan Ermənistanın “suverenliyi”nə ən böyük təhlükənin Rusiyadan gəldiyini bəyan edib.**

“Prezident Putin ən ağır cinayətdə - konstitusiya quruluşunu devirməkdə ittiham olunan adamı (Robert Koçəryanı - ”YM") təbrik edir. Bu, bizim suverenliyimizə təhdiddir, ya yox? Yaxud Rusiyanın hüquq-mühafizə sistemi Ermənistanın axtarışa verdiyi keçmiş yüksək çinli şəxsə münasibətdə “özəl davranış” sərgiləyirsə, bu, bizim suverenliyimizə qəsd deyil ki? 1 mart 2008-ci il hadisələrində adı keçən ən mühüm adam - keçmiş müdafiə naziri Mikayel Arutyunyan haqda Rusiya Baş Prokurorluğunun qərarı (Moskva onu İrəvana təhvil verməkdən imtina edib - “YM”) məgər suverenliyimizə qəsd deyil? Konstitusiya Məhkəməsinin sədri Rusiya səfiri ilə görüşür və biz söhbətin məğzi barədə heç nə bilmirik. Az öncə isə bəlli oldu ki, Rusiyanın təbliğat aləti olan “Sputnik” İnformasiya Agentliyi İrəvanın mərkəzində oturub hökumətə etimadsızlıq yaratmaqla məşğuldur. Bu bizim suverenliyimizə təhlükə deyil?" - deyə o sual edib.

Erməni parlamentar əlavə edib ki, bu kimi vəziyyətlərin hamısında Ermənistan tərəfdən Moskvanın ünvanına etiraz kimi bircə söz də deyilməyib. “Çünki cəsarətləri yoxdur, mən isə bu haqda danışacağam”, - deyə o, Rusiyanı təhdid edib.

Qeyd edək ki, bir neçə gün öncə Babacanyan Putinə qarşı cinayət işi qaldırmağa çağırış eləmişdi...

*****

Beləcə, Ermənistan hökuməti və onun parlamentdəki çoxluğu Kremldən həm qorxur, həm də qorxudur. Daha doğrusu, qorxutmağa çalışır. Tamamən Moskvanın vassal asılılığında olan bir ölkədən gələn bu kimi “təhdid”lər gülünc görünsə də, Rusiyanı xüsusi narahat eləməsə də, Moskvada yəqin ki, bunu görməzlikdən də gəlməyəcəklər...

❑ **“Yeni Müsavat”ın analitik xidməti**

# "Mən deyirəm ki, danışıqlara getməyək"

## **Tofiq Zülfüqarov:** "Paşinyan mövqeyinə aydınlıq gətirməyincə danışıq olmamalıdır"

**ATƏT-in Minsk Qrupunun həmsədrləri sentyabrın 8-də Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində "yerli seçkilər"in keçirilməsinə münasibət bildiriblər. İllərdir Azərbaycanda "turist diplomatlar" kimi qəbul edilən və proseslərə heç bir aktiv müdaxiləsi olmayan həmsədrlərin bəyanatında narahatlıq doğuran məqamların olması müzakirələrə səbəb olub. Bu mövzuda sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"ın suallarını cavablandırdı.**

**- Tofiq bəy, həmsədrlər uzunmüddətli sükutdan sonra nəhayət, dilə gəldilər. Yəqin ki, onların son bəyanatı ilə tanışsınız. Diqqətinizi nə çəkdi, sizcə, diplomatlar nə dedilər, yaxud nə demək istədilər?**

- Daha doğrusu, nə dedilər vacib deyil, nə demədilər məsələsini müzakirə etmək vacibdir. Bəzi məqamlara onlar toxunmayıblar. Toxunmadıqları məqamlar bunu deməyə əsas verir ki, indiki vəziyyət heç də həmsədrləri qane etmir. Bu və ya digər şəkildə onlar etiraf ediblər ki, yaranmış indiki vəziyyət həmsədrlərin fəaliyyətinin nəticəsidir. Daha doğrusu, bu durum onların fəaliyyətsizliyinin nəticəsində baş verir. Yenə də köhnə prinsipləri təsdiqləyiblər. Açığını deyim, mən o bəyanatda yeni bir şey görmədim. Onlar bu bəyanatla demək istəyiblər ki, Paşinyanın "Dağlıq Qarabağ Ermənistandır" mövqeyini dəstəkləmirlər. Amma eyni zamanda lazımi şəkildə öz gələcək fəaliyyətləri barəsində heç nə söyləməyiblər. Mən bir şey hiss elədim ki, Azərbaycan ictimaiyyətində bu bəyanata həddindən artıq önəm verilir. Adi bir bəyanatdır. Bu cür bəyanatlarla bağlı ilk növbədə belə fikir söyləməliyik ki, belə mövqelər vəziyyəti dəyişmir. İkincisi də onlar bəyanat vasitəsilə bizim istəklərimizi təmin edə, yəni işğalı dayandıra, işğal olunmuş torpaqları azad edə bilməzlər. Onların Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək imkanları və istəyi yoxdur.



**"Vasitəçilərin ərazi bütövlüyümüzü bərpa etmək imkanları və istəyi yoxdur"**

**- Dediniz ki, həmsədrlər Paşinyanın mövqeyini dəstəkləməyiblər. Amma bu da faktdır ki, Ermənistanın baş naziri Xankəndində "miatsum" bəyanatı verəndən sonra həmsədrlərdən heç bir reaksiya gəlmədi. Susmaq razılıq əlaməti deyilmi?**

- Məsələ burasındadır ki, həmsədrlər real şəkildə vəziyyətə təsir eləmək niyyətində deyillər. Digər buna bənzər, beynəlxalq təcrübədə olan məqamları yada salaq. Tutaq ki, hansısa bəyanat verilir. Vaxtilə İrana qarşı az qala ultimatum verilirdi. Həmin ultimatumların nəticəsində ABŞ öz istəklərinə nail oldumu? Yox. Güc tətbiq edəndən sonra nəyəsə nail olublar. Digər prosesləri götürək. Məsələn, Ukraynaya aid, ərazi bütövlüyünü dəstəkləyən onlarla bəyanat verilib. Vəziyyət dəyişibmi? Yox. Bizim ictimaiyyətdə hələ də bu illüziya davam edir. Yəni biz başa düşməliyik ki, bəyanatla, ya da sanksiyalarla heç nəyə nail olmaq mümkün deyil. Yəni bizim istədiyimiz şeylərə bu yolla nail olmaq mümkün olmayacaq.

**- Bəyanatda belə bir məqam var ki, həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli həlli kontekstində Dağlıq Qarabağ əhalisinin öz gələcəyi barədə qərar qəbul etmək rolunu tanıyır. Bu, təhlükəli mövqe deyilmi?**

- Yox. Yəni yerli idarəetmə orqanlarını formalaşdırmaq istənilən yerdə hər bir əhalinin hüququdur.

**- Yəni referenduma işarə edilir?**

- Yox. Təəssüflər olsun ki, həmsədrlər indiki halda bu formanın tətbiq olunması ilə bağlı bir məqamı yaddan çıxarırlar: indiki əhali etnik təmizləmələr nəticəsində formalaşıb. Biz bununla bağlı onlara sual versək, cavabları belə olacaq ki, oradan qovulmuş əhali bölgəyə qayıtdıqdan sonra seçkilər vasitəsilə öz idarəetmə orqanlarını formalaşdırmaq hüququna malik olacaq. Burada hiss olunur ki, həmişəki kimi, yaxşı mütəxəssislər məsələ ilə məşğul olublar və bəyanat veriblər. Hər bir bu cür bəyanatın xüsusiyyəti ondan ibarətdir ki, hər tərəf özü üçün həm mənfi, həm də müsbət elementləri tapa bilər. Amma mən öncədən dediyim kimi, bu, "növbətçi" bəyanatdır.

**- Amma siz dediyiniz kimi, bəyanatda işğal altındakı ərazilərdən qovulmuş azərbaycanlı əhalidən bəhs olunmursa, bu, artıq Azərbaycanın maraqlarına zidd mövqe deyilmi?**

- Onlar deyəcəklər ki, biz burada bəhs etmirik. Amma aşağıdakı hissədə onlara işarə edilib. Yəni münaqişənin hərtərəfli həlli məhz onu nəzərdə tutur ki, bu məsələlər də həllini tapacaq. Amma bu bəyanatın rolunun şişirdilməsi... Digər məsələlər yaddan çıxanda təbii ki, biz bunu müzakirə edə bilərik. Amma onun real əhəmiyyəti sıfır səviyyəsindədir.

**- Şübhə yoxdur ki, vasitəçilər tərəfləri masa arxasında oturtmağa hazırlaşır. Elə Ermənistan XİN başçısının son bəyanatı da bunu təsdiqləyir. Qarşıdakı danışıqlarda nədən danışılacaq, sizcə? Rəsmi Bakı danışıqlara getməlidirmi?**

- Bəli, əsas problem də bundan ibarətdir. Həmsədrlər Paşinyanın "miatsum"una siz dediyiniz kimi, heç bir reaksiya vermədilər. Belə çıxır ki, biz də reaksiya vermirik, çünki danışıqlara gedirik. Biz də deyirik ki, deyib də, bəlkə səhv edib. Amma bu "miatsum"un təsiri istər-istəməz Nyu-York danışıqlarında özünü göstərəcək axı. Deməli, biz razılıq veririk ki, hər bir məsələni müzakirə etməyə hazırıq: "miatsum"dan tutmuş digər məsələlərə qədər. Bu mövqe biz tərəfdən göstərilirsə, siz istəyirsiniz ki, həmsədrlər bizdən artıq mövqe göstərəcəklər?

**- Danışıqlara getməliyikmi?**

- Mən deyirəm ki, danışıqlara getməyək. Biz istəyirik Paşinyanın dediklərinə reaksiya olsun, amma özümüz reaksiya vermədən danışıqlara gedirik. Bundan sonra başqalarından reaksiya gözləyəcəyik? Məntiq yoxdur axı. Məmmədyarov təkbaşına kiminləsə görüşə bilər. Amma Paşinyan mövqeyinə aydınlıq gətirməsə, bu danışıqlar olmamalıdır. Bir daha desə ki, mən "miatsum" tərəfdarıyam, onda Azərbaycan danışıqlar üçün heç bir marağının olmayacağını bəyan etməlidir. Yalnız bundan sonra həmsədrlər nə isə deyəcəklər. Biz istəyirik ki, bizdən qabaq həmsədrlər nəsə desin. Bu, düzgün deyil axı. Biz özümüz nə demişik? Hansı səviyyədə reaksiya verilib?

**- Xarici İşlər Nazirliyi səviyyəsində bəyanat olub.**

- Bu, düzgün deyil axı. O tərəfdən baş nazir bəyanat verib, bu tərəfdən isə mətbuat xidməti səviyyəsində cavab verilib. Heç nazir səviyyəsində cavab verilməyib.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

---

# Heç olmasa, Azərbaycanı da Avropa ölkəsinə çevirəcəyinizi deyin...



**Hüseynbala SƏLİMOV**

**İnanmıram ki, indi suriyalılar arasında elələri tapılsın ki, öz ölkələrinin düşdüyü vəziyyətdən hansısa bir formada razılıq, hansısa formada məmnunluq duymuş olsun - beləléri yəqin ki, heç Bəşər Əsədin ən qatı əleyhdarları arasında belə yoxdur, çünki neçə illərdir ki, Suriya sözü az qala, cəhənnəmin sinoniminə çevrilibdi...**

Bunları niyə yazıram? Əvvəllər bizim xaricdə bir-iki "mühacirimiz" vardı və bunlar əsasən vaxtilə ölkədə böyük vəzifələr tutan "eks"- lər idi.

Bəli, bunlar gecəbəgündüz hamını qınayırdı ki, bəs niyə inqilab edib bizləri təkrar ölkə başına gətirmirsiniz! İndi belələrinin sayı bir az da artıb və bizim xaricdə əməlli-başlı "mühacir müxalifət"imiz yaranıbdı - bunlar da əllərindən başqa iş gəlmədiyindən, həm də kimdənsə pul alıb başqasını söymək daha asan iş olduğundan hərəsi internetdə özü üçün bir "kanal" açıb və gecəbəgündüz haray çəkirlər ki, bəs biz Azərbaycanı da Suriyaya çevirəcəyik, ora da İŞİD-i göndərəcəyik və s. və i.

Bilirsiniz, açığı, şəxsən mən bu adamları ciddi qəbul etmirəm, hətta onların pisixi sağlamlığı ilə bağlı şübhələrim var. Amma bütün hallarda, inanın, bir şeyi anlaya bilmirəm: normal adam Avropada oturub axı necə Suriyadan, İŞİD-dən danışa bilər?..

Axı bu Avropanın pul alıb söyüş söymək kimi məşğuliyyətlərdən savayı da imkanları var! Odur ki, deyirəm, bizim əziz avropalı müxalifətçilərimiz, arabir bir vaxt tapıb teatra, konsertlərə də gedin, festivallarda mükafat almış filmlərə baxın, imkan tapanda bir - iki kitab da vərəqləyin...

Siz yalnız dağıtmaqdan, yıxmaqdan, qandan danışırsınız. Normal insan, psixi sağlamlığı yerində olan adam sizin ardınızca gedərmi?..

Mən hələ heç onu da demirəm ki, normal insanların çoxu təbiətən mühafizəkar olur və onlar dəyişiklikləri elə də istəmirlər - bunu avropalı sosioloq və yaxud da psixoloqlardan soruşsanız, sizə təsdiq edərlər...

Avropada görməli-götürməli şey çoxdur. Heç olmasa, Azərbaycanı normal bir Avropa ölkəsinə çevirəcəyinizi deyin, Avropadakı insanların hüquq və imtiyazlarını vəd edin öz dinləyicilərinizə, burada da belə bir cəmiyyət və dövlət quracağınızı, Avropa ilə yaxınlaşmanın üstünlüklərini açıqlayın, heç olmasa, hökumətimizi Avropa Birliyi ilə sazişin imzalanmansını ləngitməməyə çağırın! Amma bunların əvəzində siz nə edirsiniz? Başlamısınız ki, Suriya belə gəldi, İŞİD elə getdi!..

Bir daha deyirəm ki, normal insan daha yaxşının arxasınca gedir, daha yaxşının sevdası ilə yaşayır və bu aspektdən yanaşanda heç kim sizin arxanızca getməz, çünki insanlar indi Azərbycanda min şükür ki, Suriya dediyiniz ölkədən yüz milyon kərə yaxşı vəziyyətdə yaşayır. Onlar heç sizə, ruhi vəziyyəti əməlli-başlı şübhə doğuran bir kəslərə baş qoşarmı?..

İnanın, mən də demirəm ki, Azərbaycanda hər şey əladır. Yox, belə deyil, hər dəfə bizim bəzi şanlı məmurlarımızın növbəti şücaətləri haqqında yeni - yeni faktlar eşidəndə mənə elə gəlir ki, daha boğuluram, havam çatmır və hətta onu da etiraf edirəm ki, bizi Suriya və İŞİD-lə təkcə sizlər hədələmirsiniz, elə bəzi şanlı məmurlarımız da belə edir, onlar da öz əməllərilə, daha doğrusu, öz tamahları və cinayətlərilə ilə bizi Suriya və İŞİD-lə hədələyir, çünki o əməlləri ki onlar edir, həqiqətən də bunun qarşılığında, Allah eləməmiş, nə vaxtsa Azərbaycan da Suriya ola bilər və yaxud burada da İŞİD kimi dəstələr peyda olarlar.

Sizdən bir ricam da var: heç olmasa, jurnalistləri rahat buraxın. Deyirsiniz ki, "hakimiyyətə" gələndə onların da evlərini əllərindən alıb başqalarına verəcəyik! Baxın, dövlət (çox sağ olsunlar!) kimlərə mənzil verməyib? Sənət və elm adamları alıb, əlillər alıb, Qarabağ qaziləri alıb, məcburi köçkünlər alır! Doğrudanmı bir-iki jurnalistin ev alması sizlərin gözünə belə böyük görünüb?..

Heç olmasa, deyin ki, hakimiyyətə gələndə xalqın malını-sərvətini bəzi oğru məmurlardan geri alacağıq! Belələrinin olmasını hakimiyyətin öz təmsilçiləri belə inkar etmirlər. Sizsə başlamısınız, jurnalistlər belə gəldi, elə getdi...

Bəlkə də jurnalistlərin də həssas bir sosial qrup olması sizdə şübhə yaradır. Amma inanın ki, orta statistik azərbaycanlı jurnalisti orta aylıq əmək haqqı qədər qonorar almaq üçün dəridən-qabıqdan çıxır. Ayda 200 manatdan artıq qonorar verən sayt demək olar ki, yoxdur. İndi kalkulyatoru qabağınıza qoyub hesablayın: normal bir aylıq qazanc əldə etmək üçün adi azərbaycanlı jurnalist neçə saytla əməkdaşlıq etməlidir?..

O ki qaldı müxalifətçilik məsələsinə, başqalarını bilmirəm, şəxsən mən on illərlə, əvvəlcə AXC-də, daha sonra isə AXCP-də oldum, bu təşkilatların bütün pillələrini addımbaaddım keçdim, bütün seçkili orqanlarında təmsil olundum, zira bir gün, əvvəlcə AXCP-dən, daha sonrasa bütün müxalifətdən getdim, çünki on illərlə bu insanların arasında oldum, amma ki, onlarda zərrə qədər belə olsun, ELEMENTAR ƏDALƏT hissi görmədim...

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019

# Sənədsiz evlərlə bağlı yaxın vaxtlarda sərəncam veriləcək

## Ölkə rəhbərliyinə tədbirlər planı təqdim olunub, əhalinin çoxdandır gözlədiyi məsələ həllini tapır

**Azərbaycanda ciddi sosial əhəmiyyətli problemlərdən biri daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarını təsbit edən sənədləşmənin çətinliyidir. Uzun illərdir xüsusilə də Bakı şəhəri ərazisində nizamsız şəkildə tikilən yüz minlərlə fərdi ev və tikililərin sənədləşdirilməsi problemi həll olunmur. Bir neçə il əvvəl Bakı Şəhər İcra Hakimiyyəti paytaxt və paytaxtətrafı ərazilərdə tikilmiş sənədləşdirilməsi mümkün hesab edilən qanunsuz evlərin sayının 700 mindən artıq olduğunu bildirmişdi. Bunun 400 mindən yuxarısı qaz, su, elektrik, dəmir yolu və digər infrastruktur obyektlərinin mühafizə zolağında, bir neçə mini SOCAR-a məxsus torpaqlarda inşa edilib.**



Bu problem dəfələrlə ölkə rəhbərliyi tərəfindən də dilə gətirilib. Hələ 2011-ci ilin martında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə prezident İlham Əliyev rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq verdiyini deyib: “Bakıda evlərin qeydiyyata alınması problemi var. Ancaq elə etmək lazımdır ki, bu problem həll olunarkən xoşagəlməz halların qarşısı tam şəkildə alınsın. Sirr deyil ki, qeydiyyata alınma zamanı əsassız tələblər irəli sürülə, rüşvət, əsassız maraqlar ola bilər. Bu, reallıqdır. Ona görə də Hacıbala Abutalıbova göstəriş vermişəm. Bu məsələnin həlli üçün şəffaf mexanizm işlənməlidir ki, biz burada korrupsiyanı, rüşvətxorluğu tamamilə aradan götürək. Yoxsa, xoşniyyətli bir təşəbbüs yenə də bəzi adamların tamahkarlığı ucbatından bizə ancaq problemlər gətirə bilər”.

Dövlət başçısının tapşırığından sonra BŞİH-in rəhbərliyi altında xüsusi komissiya yaradılıb, problem araşdırılsa da, ciddi bir addım atılmadı. Bu sahədə irəliləyişə nail olmaq üçün ölkə başçısı 2015-ci ilin yanvarında “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə fərman imzaladı. Fərmanla müəyyən edilir ki, siyahıda nəzərdə tutulmuş sənədlər müvafiq əmlaka hüququn əmələ gəldiyi anda həmin əmlak magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində yerləşmədiyi hallarda daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması üçün əsas hesab edilir. Lakin bu fərman da evlərin sənədləşməsi sahəsində ciddi irəliləyişlə nəticələnmədi.

Nəhayət, bu il problem yenidən, özü də birbaşa ölkə prezidenti tərəfindən gündəmə gətirilib. Belə ki, prezident fevralın 19-da “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” fərman imzalayıb. Fərmanın icrası məqsədilə aparılan araşdırmalar göstərib ki, yalnız Bakı şəhərində 400-dək çoxmənzilli bina sənədləşməyib. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin avqustun 26-da yaydığı açıqlamaya görə, fərman imzalandığı tarixdən həmin günədək qurum Fövqəladə Hallar Nazirliyinin Bakı şəhərində 134 ünvanda yerləşən çoxmənzilli yaşayış binası kompleksləri üzrə təqdim olunmuş rəyləri əsasında həmin binaların hər birinin istismarına icazə verib. Komitə tərəfindən verilmiş 134 icazə ümumilikdə 349 girişli çoxmənzilli binaları və cəmi 23 183 mənzili əhatə edir. Avqustun 26-dan bəri isə Komitə daha 14 ünvanda yerləşən binaların istismarına icazə verib. Binaların istismarına icazə verildikdən sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən müvafiq göstəricilər Tikintilərin Dövlət Reyestrinə daxil edilir, habelə Əmlak Məsələləri Dövlət Komitəsinə, Fövqəladə Hallar Nazirliyinə, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinə və Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyinə yazılı məlumat göndərilir.

**Prezidentin bu fərmanından az sonra - mart ayında verilən məlumatlardan aydın oldu ki, fərdi evlərin sənədləşməsi istiqamətində də işlərə başlanıb. Belə ki, Prezidentin İqtisadi məsələlər üzrə köməkçisi xidmətinin baş məsləhətçisi Feyruz Mustafayevin verdiyi məlumatdan aydın olur ki, məsələ ilə bağlı xüsusi işçi qrup yaradılır:** “Mühafizə zonasına düşən, dövlət şirkətinə məxsus torpaq sahəsində tikilmiş, təyinat üzrə olmayan, yəni kənd təsərrüfatı üçün ayrılmış torpaq sahələrində tikilən həyət evləri var. Ona görə də bütün bunlarla bağlı araşdırma aparılacaq. Vətəndaşların bütün problemləri aradan qaldırılacaq”.

Bununla yanaşı, Əmlak Məsələləri Dövlət Komitəsi də açıqlama yayaraq, özbaşına və sənədsiz inşa edilmiş tikililərin sənədləşdirilməsi ilə bağlı konsepsiya hazırlandığını, yaxın zamanlarda həmin konsepsiyanın Prezident Administrasiyasına təqdim ediləcəyini bildirdi. Daha sonra isə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov ətraf qəsəbələrin sakinləri ilə görüşündə müvafiq işçi qrupunun yaradıldığını və tezliklə fərdi evlərin sənədləşməsi prosesinə başlanacağını bildirdi. Lakin bu açıqlamaların üstündən 4-5 ay vaxt keçsə də, hələ ki real addımlar atılmayıb. Yaradılan işçi qrupunun işi hansı mərhələdədir? Yüz minlərlə insanın əziyyət çəkdiyi problemin həlli üçün hansı addımlar planlaşdırılır? Bu və digər suallarımıza rəsmi qurumlardan hər hansı cavab almaq mümkün olmadı.

Lakin əldə etdiyimiz məlumata görə, fərdi evlər və müvafiq icazə olmadan inşa edilmiş digər tikililərin sənədləşməsi ilə bağlı yaxın günlərdə mühüm addımlar atılacaq. Belə ki, işçi qrupun fəaliyyətinin yekunu olaraq toplanmış təkliflər əsasında problemin həlli üçün tədbirlər planının hazırlandığı və ölkə rəhbərliyinə təqdim olunduğu, yaxın vaxtlarda veriləcək müvafiq sərəncamdan sonra həmin planın icrasına başlanacağı bildirilir.

**❑ DÜNYA, “Yeni Müsavat”**

# Pambıq yığımına start verilir - prosesə ciddi nəzarət olunacaq



## Nazirlik: “Hava şəraiti imkan versə...”

**Yaxın günlərdə Azərbaycanda pambıq yığımına başlanacaq. Son illərdə müxtəlif müzakirələrə, mübahisələrə yol açan bu prosesə cari ildə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən ciddi hazırlıq tədbirləri həyata keçirilməkdədir.**

Nazirliyin yaydığı rəsmi məlumatdan aydın olur ki, bu il Azərbaycanda pambıq əkinlərinin sahəsi keçən ilkindən xeyli azdır. Belə ki, ötən il 30-a yaxın rayonda 132 min hektardan çox ərazidə pambıq əkilmişdisə, bu il 21 rayonda 100 112 hektar sahədə pambıq əkini həyata keçirilib. Bu azalmanı KTN əkinlərin iqlim və torpaq şəraiti imkan verən rayonlarda aparılması, həmçinin məhsuldarlığın artırılması ilə izah edir. Qeyd edək ki, əkilən sahələrin 96 241 hektarı hüquqi şəxslərə, 3 871 hektarı fiziki şəxslərə məxsusdur.

**KTN “Aqrolizinq” ASC-nin İdarə Heyətinin sədri Elmin Rəhmanovun verdiyi məlumata görə, cəmiyyətin rayon bölmələrinin istifadəsində olan pambıqyığan kombaynlar yığıma hazırlanır. Belə ki, növbəti həftədən etibarən “Aqrolizinq” ASC-nin rayon bölmələrinin istifadəsində olan müasir tipli 123 kombayn vasitəsilə yığım həyata keçiriləcək. Eyni zamanda pambıqçılıq sahəsində fəaliyyət göstərən iri şirkətlər tərəfindən də 288 pambıqyığan kombayn yığıma cəlb olunacaq:** “Hesab edirik ki, hazırda istifadədə olan 411 kombayn vasitəsilə 100 000 hektardan çox olan pambıq sahəsində yığımın təşkil olunmasında heç bir çətinlik yaşanmayacaq”.

**Cəmiyyətin sədri əlavə edib ki, yığım prosesi ilə yanaşı, məhsulun daşınması da vacib amillərdəndir. Bunun üçün “Aqrolizinq” ASC tərəfindən 125 ədəd “Belorus-80X” tipli traktor, 220 ədəd qoşqu vasitəsi ilə yığılmış pambığın operativ şəkildə itkisiz daşınması həyata keçiriləcək:** “Pambıqçılıqla məşğul olan fermerlər cəmiyyətimizin xidmətlərindən yüksək səviyyədə yararlanmaları üçün məlumatlandırılıblar. Onlar bizə müraciət etməklə xidmətlərimizdən faydalana bilərlər”.

Xatırladaq ki, son illərdə pambıq yığımı gec başa çatdığına görə ciddi müzakirələrə səbəb olur. Belə ki, yığım prosesi dekabr-yanvar aylarına qədər davam edir. Bu isə toplanılan məhsulun keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Buna görə də 2018-ci il əvvəlində ölkə rəhbərliyi tərəfindən ölkəyə pambıq yığan kombaynların gətirilməsi üçün “Aqrolizinq” ASC-yə irihəcmli vəsaitlər ayrılıb. Nəticədə ötən il “Aqrolizinq” vasitəsilə ölkəyə 100 ədəd pambıqyığan kombayn gətirilib. Ötən ildən bəri daha 28 kombayn “Azərpambıq” MMC tərəfindən əldə edilib.

**“Aqrolizinq” ASC-dən “Yeni Müsavat”a verilən məlumata görə, pambıq yığımının qış aylarına qədər yubanmasının əsas səbəbi texnika çatışmazlığı deyil, daha çox hava şəraitidir:** “Respublikamızda pambığın vaxtında və keyfiyyətlə yığılıb təhvil verilməsinin müddəti hava şəraitindən asılı olaraq dəyişə bilər. Belə ki, əgər cari ildə hava şəraiti əlverişli keçərsə, mövcud texnikalardan istifadə etməklə, pambıq yığımını noyabrın 15-nə qədər başa çatdırmaq mümkündür. Əgər ötən illərdə olduğu kimi, hava şəraiti əlverişsiz olarsa, yığım dekabr ayına qədər uzana bilər. Bununla belə, həm "Aqrolizinq" ASC, həm də hüquqi şəxslər vahid koordinasiyalı şəkildə istifadələrində olan 411 ədəd kombayndan, rayon bölmələrimizin istifadəsində olan 125 ədəd “Belarus-80X” tipli traktordan və 220 ədəd qoşqudan maksimum yararlanmaqla, yığımı nəzərdə tutulmuş optimal müddət ərzində başa çatdırmağı planlaşdırır".

Onu da qeyd edək ki, Azərbaycan pambıq mahlıcı və pambıq ipliyinin ixracını getdikcə artırır. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin yanvar-iyulunda xaricə 83 milyon 104.32 min dollarlıq pambıq mahlıcı satılıb. Bu dövrdə xarici ölkələrə daha 17 milyon 330.32 min dollarlıq pambıq ipliyi ixrac edilib. Müqayisə üçün bildirək ki, ötən ilin eyni dövründə ixrac olunmuş pambıq mahlıcının dəyəri 45 milyon 198.14 min dollar, pambıq ipliyinin dəyəri isə 12 milyon 422.07 min dollar təşkil etmişdi.

**❑ DÜNYA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağda savaş ssenarisi - dinc həll imkanları tükənir

## İşğalçı ölkənin sülhlə bağlı imitasiya oyunu Azərbaycana müharibədən savayı yol saxlamayıb; konfliktin dinc həlli isə böyük güclərin bölgədə toqquşan maraqlarının girovuna çevrilib...

**Separatçı rejim və onun əsas himayədarı olan işğalçı Ermənistan onsuz da neçə vaxtdır dalanda olan Qarabağ danışıqlarını daha mənasız edən addımları davam etdirir. Sentyabrın 8-də işğal altındakı bölgəmizdə növbəti saxta seçkilərin keçirilməsi buna bariz sübutdur.**




"Yerli seçkilər" adı ilə düzənlənən bu siyasi tamaşaya artıq ATƏT-in Minsk Qrupu həmsədrlərindən adekvat reaksiya gəlib. "Seçkilər" qanunsuz elan edilib. Həmçinin qardaş Türkiyə və qonşu Gürcüstan xarici siyasət idarələri, gözlənildiyi kimi, ermənilərin seçki şousunu pisləyən bəyanat yayıb. Rəsmi Bakının reaksiyası da öz yerində.

Qondarma seçkilərin Nyu-Yorkda Azərbaycan və Ermənistan XİN başçılarının nəzərdə tutulan görüşü ərəfəsində reallaşması xüsusi diqqət çəkir. Xəbər verildiyi kimi, ABŞ-a səfərə hazırlaşan Ermənistan baş naziri Nikol Paşinyan bu "seçkilər" münasibətilə separatçıları təbrik edib. İşğalçı tərəfin bu təxribatçı və absurd davranışı fonunda formal danışıqların belə aparılmasının anlamı qalmır. Ona görə ki, bütün bunlar faktiki surətdə işğal rejiminin uzanmasına xidmət edir. Heç şübhəsiz ki, Paşinyanın ABŞ səfəri, onun BMT Baş Məclisində edəcəyi çıxış və bunun ardınca Los-Ancelesdə erməni icması ilə görüşü buna bir daha əminlik yaradacaq.

**Politoloq Elxan Şahinoğlu hesab edir ki, Paşinyan 2018-ci ildəki çıxışı kimi, böyük ehtimalla, bu dəfə də BMT-də Azərbaycanı guya sülh istəməməkdə ittiham edəcək.** "O zaman Paşinyan demişdi ki, Azərbaycan separatçıların keçirdiyi "referendum"un nəticələri ilə razılaşmalıdır. Yəqin ki, o, "Qarabağ - Ermənistandır" tezisini həm Nyu-Yorkdakı çıxışı zamanı, həm də Los-Ancelesdə erməni diasporu ilə görüşdə səsləndirəcək. Ona görə də mən Nyu-Yorkda Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşünün anlamını görmürəm. Nədən ki, Zoqrab Mnatsakanyan da Nikol Paşinyanın təxribatçı sözlərini təkrarlayıb. Bu, danışıqların imitasiyasıdır və bizə lazım deyil. Bizə konfliktin həlli lazımdır", - deyə politoloq qeyd edib.

*****

Qarabağ konflikti ətrafında son gəlişmələr bir daha münaqişənin həllində hərb variantını gündəmə gətirir. Bir çox təhlilçilərə görə, düşmən tərəfin radikal davranışı və mövqeyi bu xüsusda Bakının əlinə işləyir, Azərbaycanın hərbi gücə əl atması üçün əlavə əsaslar yaradır, Bakının məsələdə manevr imkanlarını artırır. Bunu iki gün öncə ATƏT Parlament Assambleyasının sədri Georgi Tseretelinin Ermənistan baş naziri Nikol Paşinyanın Xankəndində verdiyi məlum təxribatçı bəyanatına ("Dağlıq Qarabağ Ermənistanındır") neqativ reaksiyası da təsdiqləyir.

**Tsereteli haqlı olaraq, Paşinyanın sözlərini danışıqlar prosesinə zərər vuran hadisə kimi dəyərləndirib. Sitat:** "Hesab edirəm ki, sülhün yaranmasına xidmət etməyən və tərəflər arasında danışıqlara dəstək verməyən bu tip bəyanatlar həmişə sülh danışıqlarına zərər vurur. Biz daha çox konstruktiv bəyanat və konkret addımlar eşitmək istəyirik. Ziddiyyətləri həll etmək və ümumi dil tapmaq lazımdır. Təəssüf ki, fikir ayrılıqlarına və nizamlanma prosesinə zərər vuran bu cür açıqlamalar problem olaraq qalır. Münaqişənin həlli güclü siyasi iradə tələb edir. Dağlıq Qarabağ münaqişəsinin həllinə yalnız beynəlxalq hüquq çərçivəsində nail olmaq olar".

Beynəlxalq hüququn reallaşması isə ilk növbədə böyük güclərin iradəsindən asılı durumdadır. Hər halda, Qarabağ ixtilafının həllində Rusiya və ABŞ vasitəçiliyi öz üzərinə götürüb. Əfsus ki, bu vasitəçilik on illər ərzində heç bir ciddi pozitiv nəticəyə gətirməyib. Əsas səbəb də Moskva və Vaşinqtonun Cənubi Qafqazda toqquşan geosiyasi maraqlarıdır. Qarabağ məsələsi ən əvvəl bu toqquşan maraqların girovuna çevrilib.

Ya da Azərbaycan "qızıl fürsət" yaranan kimi, yeni regionda uyğun geosiyasi şərtlər yetişən kimi, hərbi güc amili hesabına işğal rejiminə qısa zamanda son qoyub məsələni bitirməlidir. Sözsüz ki, bu variant həmişə Bakının masası üzərindədir. Belə görünür ki, hadisələr məhz buna doğru inkişaf etməkdədir. Azərbaycan rəhbərliyinin Nikol Paşinyana tanıdığı unikal şansdan sonuncunun yararlanmaması, əksinə, daha radikal xətt seçməsi bu qənaəti günbəgün gücləndirməkdədir.

# Ermənistanda siyasi xaos - Paşinyanın öz xalqını sülhə hazırlamaqdan başqa yolu qalmayıb

**Ermənistanın "Amulsar" qızıl mədəninin "Lydian Armenia" şirkəti tərəfindən istismar edilməsi ilə bağlı əldə edilən razılaşma Paşinyan hökumətinin növbəti uğursuzluğuna çevrilib və erməni ictimaiyyətinin ciddi narazılığına səbəb olub. Bu layihə təkcə daxili narazılıq yaratmır, eyni zamanda Ermənistanın xarici siyasətində də ciddi problemlərə səbəb ola biləcək hadisə kimi qiymətləndirilir".**



"Yeni Müsavat" xəbər verir ki, bu fikirləri AzərTAc-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. Onun sözlərinə görə, əgər daxili narazılıq ekoloji problemlər və şirin su mənbələrinin yoxolma ehtimalı ilə əsaslandırılırsa, xarici siyasətdə narazılıqlar Ermənistana Qərb investisiyasının cəlb edilməsi ilə işğalçı ölkədə Rusiya sərmayəsinin sıxışdırılması ilə əlaqələndirilir.

Deputat qeyd edib ki, daxili və xarici siyasətlə əlaqələndirilən təhdidlər Paşinyanı çıxılmaz vəziyyətə salır və hər iki amil getdikcə daha təhlükəli həddə çatır. Hələlik "Lydian Armenia" şirkətinin işləri bərpa etməsi üçün 2020-ci ilə qədər fasilə götürməsi Paşinyan üçün bir siyasi "nəfəslik" rolunu oynasa da, bir qədər sonra onun bu problemlə daha ciddi və sərt şəkildə üzləşəcəyini qaçılmaz edir.

**H.Babaoğlu vurğulayıb ki, Paşinyanın vəziyyətdən optimal çıxış yolu tapması faktiki olaraq mümkün deyil:** "Çünki 2020-ci ildə qızıl yatağının istismarı ilə bağlı işlərin yenidən başlayacağı təqdirdə Paşinyana da şimal mənşəli təzyiqlərin başlanacağı istisna deyil. Belə olan halda isə bu layihənin realizə olunması çox mürəkkəb görünür. Ancaq ən əsas məsələ odur ki, belə vəziyyətdə Paşinyanın ictimai rəyi manipulyasiya etdiyi son kart da onun əlindən çıxmış olacaq. Çünki məhz "Amulsar" qızıl yatağından əldə etdiyi gəlirlərə güvənərək 2025-ci ildən sonra Ermənistan iqtisadiyyatında sıçrayışlı inkişafın olacağı vədini vermiş Paşinyan bu vədini də yerinə yetirə bilməyəcək. Əgər o vaxta qədər hakimiyyətdə qalmağı bacarsa belə, ondan sonra hakimiyyətlə mütləq vidalaşmalı olacaq. Hazırda bu məsələnin təkcə Ermənistanın daxilində deyil, xaricdə də fəal müzakirə mövzusuna çevrilməsi Ermənistanın qərb mənşəli tərəfdarlarının da Paşinyana təzyiqi ilə nəticələnə bilər ki, bu məsələnin həllini tapmaması onu dilemma qarşısında qoyaraq siyasi intihara gətirib çıxara bilər. Ona görə də Paşinyan xalqını sülhə hazırlamalı və Azərbaycanın işğal edilmiş torpaqlarından öz quldur dəstələrini çəkməlidir. Onun başqa çıxış yolu yoxdur".

**Hikmət Babaoğlu əlavə edib ki, "Amulsar" qızıl mədəni ətrafında siyasi xaos davam edir.** "Ermənistan hökumətinin düşdüyü isterik durum Nikol Paşinyanın ictimai nüfuzuna mənfi təsir göstərməkdədir", - deyə o əlavə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019

**Paytaxtda sürücülərin dayanma-durma qaydalarını pozması ilə bağlı cərimələrin yazılması səlahiyyətinin Bakı Nəqliyyat Agentliyinə verilməsi böyük bir xaosa, kütləvi narazılığa gətirib çıxarıb.**

# İki qurum Bakıda dayanma-durma və parklanma xaosu yaradıb - reportaj

## Paytaxtda "ASA İsgəndər" holdinq dayanacaqlarda sürücülərdən qanunsuz şəkildə pul yığır, Bakı Nəqliyyat Agentliyinin müfəttişləri cərimə yazır; ekspertdən ilginc açıqlamalar

Sürücülər Dövlət Yol Polisinin dövründə belə özbaşınalıq, nizam-intizamsızlıq, gizlənqaç tendensiyası olmadığını bildirirlər.

Vətəndaşlar qeyd edirlər ki, BNA-nın nəqliyyat müfəttişləri sabiq nazir Ziya Məmmədovun dövründəki "qoçular" kimi davranırlar.

Son zamanlar sosial şəbəkələrdə avtomobili olan şəxslərin şikayətlərinə daha çox rast gəlinir. Onların sözlərinə görə, BNA parklanma ilə bağlı əsaslı işlər həyata keçirmədiyinə görə şəhərdə qarmaqarışıqlıq yaranıb, sürücülər avtopark kimi göstərilən yerlərdə maşın saxlayanda belə əlində planşet gəzən nəqliyyat müfəttişləri gizlincə gəlib çəkirlər, dayanma-durmanın pozulması iddiası ilə cərimə yazırlar.

Sonra sürücü şikayət edəndə istisna hallarda cəriməni silirlər, texniki səhvlə əlaqələndirirlər. Lakin şikayətlərə baxılması halları azdır, kütləvi şəkildə sürücülər cərimələnir.

Hətta BNA tərəfindən quraşdırılan kameralar tərəfindən çəkiliş aparıldığı, dayanma-durma qaydasını pozanlarla yanaşı, pozmayan sürücülərin görüntüyə düşdüyü bildirilir.

Bugünlərdə belə halla üzləşən sürücülərdən birinin şikayətinə baxılıb və cəriməsinə xitam verilib. Beləliklə, məlum olur ki, Bakıda dayanma-durma ilə bağlı vəziyyət olduqca acınacaqlıdır.

BNA tərəfindən yeni parkinqlər təşkil edilmir, qeyri-qanuni avtoparklar pul yığmağa davam edir, qurum isə sürücülərə onlara ödəniş etməməyi xəbərdarlıq edir. Ancaq reallıq budur ki, ödəniş etməyə məcbur olursan.

Bu azmış kimi, avtoparkda saxlanan maşını xəlvətcə çəkirlər, 20 manat cərimələyirlər. Nəticədə ciddi narazılıq baş qaldırmaqdadır.

**Bir neçə gün əvvəl jurnalist Elvin Hüseynov da başına gələni yazmışdı:** "BNA özü-öz əməlləri ilə işinə çoxdan kölgə salıb. Mənə məxsus avtomobili gəlib çəkib qaçdılar. Əlqərəz, fotolarla birgə şikayət yolladım və elə çəkdikləri kimi də cəriməni ləğv elədilər. Amma bu gün onlarla sürücü geri şikayət göndərməyi bilmir və haqsız yerə bu quruma cərimələr ödəyirlər. BNA ancaq mərkəzi bir-iki küçədə parkinqə nəzarət edə bilir. Əminliklə deyə bilərəm ki, Bakının böyük hissəsinə BNA-nın nəzarəti sıfır dərəcəsindədir.

Sürücülər cərimə olunur, milyonlarla vəsait yığılıb, lakin şəhərdə bu vəsaitə hansı parkinq yerləri açılıb ki, sürücü gəlib maşını orada saxlasın?"

**Sürücülər qeyd edirlər ki, nəqliyyat müfəttişləri öz müləhizələri əsasında dayanma-durma qaydasının pozulması cərimələrini yazırlar:** "Agentliyin müfəttişləri bilmirlər ki, hansı hallarda cərimə yazıla bilər. Sadəcə, öyrəniblər ki, sürücü saxladısa, cərimə yazılmalıdır. Bəzi yerlərdə yol hərəkəti nişan yoxdur, müfəttiş sürücünü əvvəlcə xəbərdarlıq etməlidir ki, burada saxlamaq olmaz. Ancaq gizlincə gəlib oğru kimi çəkib gedirlər. Axı bu qanunsuzluqdur. Hamının imkanı da yoxdur ki, cəriməni ödəsin. Şəhərin bir çox yerlərində parkinqlər təşkil edilməyib.

Ərazidə parkinq yoxdursa, sürücü harada saxlamalıdır? Bunu planlaşdırmaq lazımdır, sonra dayanma-durma qaydasını pozan sürücüyə cərimə yazmaq olar".

İkinci ümumi şikayət budur ki, BNA-nın həmin nəzarəti həyata keçirən əməkdaşları kobudluq edirlər. Sürücü ərazidən uzaqlaşacağını bildirəndə belə onun sözünə baxmırlar, şəklini çəkib cərimə yazırlar.

Sürücülər deyirlər ki, bəzi BNA əməkdaşları qaydalara əməl etmir, sükan arxasında təhlükəsizlik kəməri taxmır, istədiyi yerdə maşın saxlayır. Sürücülərin digər şikayəti həm də ondan ibarətdir ki, parklanma xidməti olduqca bahadır. Hazırda 1 saata ən azı bir manat alırlar, mərkəzi ünvanlarda 2 manat ödəniş edilir.









**Bu problemlərlə bağlı "Yeni Müsavat"a danışan nəqliyyat eksperti, avtosfer.az saytının baş redaktoru Elməddin Muradlı daha əhatəli məlumat verdi, detallarına toxundu. Onun sözlərinə görə, Bakıda dayanma-durma qaydaları ilə bağlı çaşqınlıq və qarışıqlıq var. Ekspert bildirir ki, BNA tərəfindən şəhərdəki yerüstü dayanacaqlar tam təhvil alınmayıb:** "Amma vaxtilə meriyanın işçiləri olmuş bəzi şəxslər, o cümlədən "ASA İsgəndər" holdinqin tərkibində yaradılan "ASA Parkinq" MMC dayanacaqlarda qanunsuz fəaliyyət göstərir, qanunsuz şəkildə sürücülərdən parklanma pulu yığırlar. Onlar dayanma-durma qadağan edilən yerlərdə xidmət göstərirlər, sürücüləri əraziyə dəvət edirlər, pul alırlar.

Sonra nəqliyyat müfəttişi gəlir və dayanma-durmanın pozulması ilə bağlı cərimə yazır. Bu zaman şirkətin işçisi olan uşaqlar qaçıb gizlənirlər. Ona görə də sürücülər yol nişanına yox, həmin uşaqlara inanırlar".

**E.Muradlının dediyinə görə, BNA dayanma-durma ilə bağlı qaydalar müəyyən edib ki, avtomobilləri səkiyə paralel saxlamaq lazımdır:**

"Amma həmin avtoparkların işçiləri sürücüləri məcbur edirlər ki, səkiyə perpendikulyar saxlasınlar. Çünki bu zaman yer tutumu çox olur, sərf edir. Sürücü də inanır və bu halda da BNA əməkdaşının haqqı çatır ki, cərimə yazsın. Amma bu, parklanma qaydasının pozulmasıdır və cərimə məbləği 10 manatdır.

Son zamanlar eşidirik ki, bəzi hallarda sürücülərə parkalanma qaydasının pozulması ilə bağlı 20 manat cərimə yazılır. Hesab edirəm ki, düzgün deyil, sürücü protokolu ləğv etdirə bilər".

**Nəqliyyat mütəxəssisi əlavə etdi ki, ümumiyyətlə, Bakı yollarında müayinə aparılsa, dayanma-durma qadağan olunan bəzi yerlərdə parklanmaya icazə vermək olar:** "Məsələn, Neftçilər prospektində dayanmanı qadağan etmək doğru deyildi. İnsanlar axşam saat 7-8-dən sonra bulvara gəlirlər, onlara şərait yaratmaq Kukla Teatrından dəniz vağzalına kimi icazə vermək olar.

Bundan başqa, sürücülərin evlərinin yanında dayanma-durma şəraiti yoxdur. Amma bəzi qurumlar özbaşınalıq edirlər, hərə öz bildiyini yerinə yetirir. Nəticədə anormal vəziyyət yaranır.

Misal üçün, Bəşir Səfəroğlu və ona paralel küçələrdə səkiləri, bardürləri 40 santimetr hündürlüyə qaldırıblar. Bu zaman piyadalar üçün yolun sağ sol tərəfləri genişlənib, avtomobillərə isə bir cərgəlik yer saxlanıb.

İndi təcili yardım maşınları o küçələrdə yaşayanların zənginə getmir. Bunu hansı "ağıllı" fikirləşib? Ümumiyyətlə, səkilərdə dibçəklər, dəmir barmaqlar edliblər. Bütün bunlar təfəkkürsüzlüyün nəticəsidir".

E.Muradlı qeyd etdi ki, BNA tərəfindən quraşdırılan kamera ilə elektron protokol tərtib olunması mübahisəli məsələdir və qanunvericilikdə dəyişikliyə ehtiyac var.

Yada salaq ki, Bakı Nəqliyyat Agentliyi İdarə Heyətinin rəhbəri Vüsal Kərimli parkinqlərdə yığılan pulların BNA-ya heç bir aidiyyəti olmadığını bildirmişdi.

Hazırda parkinqlər BNA-ın tabeliyinə tam keçməyiyi və təhvil-təslim aparıldığı üçün Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində qalır.

Lakin bu şirkətin Bakı Şəhər İcra Hakimiyyəti ilə hər hansı bir əlaqəsinin olub-olmadığı da məlum deyil. MMC barəsində elektron mətbuatda da məlumatlar, şikayətlər dərc olunub.

BNA isə bildirir ki, nəqliyyat vasitələri sahiblərinin dayanma, durma və parklanma qaydalarına riayət etməsinin təmin edilməsi və yol hərəkətinin təşkili sahəsində tədbirlər davam etdirilir.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**



# Bakıda adam oğurluğu ilə məşğul dəstə zərərsizləşdirilib

Bakı Şəhər Baş Polis İdarəsi, Xətai RPİ Cinayət-Axtarış Şöbəsi, Xətai RPİ 36-cı Polis Bölməsi əməkdaşlarının birgə keçirdiyi intensiv uğurlu əməliyyat-axtarış tədbirləri nəticəsində adam oğurluğunda şübhəli bilinən dəstə ifşa olunub.

Bakı Şəhər Baş Polis İdarəsindən APA-ya verilən məlumata görə, Xətai rayon sakini H.Əsgərovun paytaxt sakini A.Abbasovaya 25 min manat borcu olub. Sentyabrın 9-da Bakı şəhər sakini, 1985-ci il təvəllüdlü K.Kazımlı A.Abbasovanın sifarişi ilə H.Əsgərovu Bakıxanov qəsəbəsində yerləşən kafelərin birinə dəvət edib. Əvvəllər məhkum olunan, kriminal aləmə meylli, 1982-ci il təvəllüdlü V.Allahverdiyev, Sumqayıt şəhər sakinləri - əvvəllər məhkum olunan, 1988-ci il təvəllüdlü Ş.Hüseynov və 1992-ci il təvəllüdlü F.Eminoğlu H.Əsgərovu məcburi qaydada avtomobilə əyləşdirərək A.Abbasovanın Pirşağı qəsəbəsində yerləşən bağ evinə aparıblar. Onlar həmin ünvana daha sonra gələn Bakı şəhər sakini, əvvəllər məhkum olunan, 1987-ci il təvəllüdlü N.Kazımlının iştirakı ilə H.Əsgərova müxtəlif dərəcəli bədən xəsarəti yetirərək 25000 manatın əvəzinə 30000 manat ödəməsini bildirərək işgəncə veriblər. Alınan pulun müqabilində A.Abbasova həmin şəxslərə 10000 manat verəcəyini vəd edib.

Keçirilən kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində V.Allahverdiyev, A.Abbasova, F.Eminoğlu, Ş.Hüseynov, N.Kazımlı və onun həyat yoldaşı K.Kazımlı müəyyən olunaraq saxlanılıb, zərərçəkən H.Əsgərovun girov saxlandığı yerdən sağ-salamat azad olunub.

Faktla bağlı Xətai RPİ-nin İstintaq şöbəsində CM-in 144.2.3, 144.2.4 və 144.2.6-cı maddələri ilə cinayət işi başlanılıb.

Cinayət işi üzrə bütün halların araşdırılması, istintaqın tam, obyektiv və hərtərəfli aparılması üçün istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019

# ABŞ xarici siyasətinin "qırğısı" getdi - Boltonun qovulmasının pərdəarxası məqamları

## Tramp "davakar" müşavirini niyə işdən uzaqlaşdırdı?

**ABŞ prezidenti Donald Tramp milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonu vəzifəsindən azad edib. Bununla bağlı qərarını daha əvvəl olduğu kimi, twitter hesabından elan edib. Tramp etiraf edib ki, bir çox məsələlərdə Boltonun məsləhətləri ilə razılaşmayıb, buna görə də onun xidmətlərinin artıq lazım olmadığını düşünür: "Buna görə Condan istefasını istədim və o da istefasını verdi".**



Tramp Con Boltona xidmətlərinə görə təşəkkür də edib. Boltonu hələlik müavini Çarli Kapperman əvəz edəcək.

Con Bolton ABŞ administrasiyasında mühüm postlardan biri olan müşavir postuna 2018-ci ilin aprelində təyin olunmuşdu. 17 ay prezident müşaviri olan Bolton dünyada daha çox müharibə tərəfdarı, İrana qarşı müdaxiləni dəstəkləyən dövlət adamı kimi düşdü. Onun administrasiyadan qovulacağı daha əvvəldən məlum idi. Çünki davakar Bolton prezident Trampla və ABŞ-ın xarici siyasət idarəsinin rəhbəri Mayk Pompeo ilə yola getmirdi.

Boltonun İran, Türkiyə (Suriyanın şimalındakı vəziyyət), eləcə də Şimali Koreya və Əfqanıstan kimi mübahisəli məsələlərdə daha sərt, müharibə tərəfdarı mövqe tutması Trampı narazı salırdı. Bolton müharibə tərəfdarı siyasətçi kimi İrana, Şimali Koreyaya, həmçinin Venesuelaya birbaşa hərbi müdaxiləni dəstəkləyib. Hətta onun Venesueladakı vəziyyətlə bağlı keçirdiyi mətbuat konfransında bu ölkəyə hərbi qüvvə göndərilməsi ilə bağlı qeydi yazılmış dəftərçəsi kameralarda əksini tapmışdı.

Ancaq Venesuela ilə bağlı Tramp və administrasiya ilə Bolton arasında fikir ayrılığı olmasa da, İran mövzusunda Boltonla Tramp, Əfqanıstan və Şimali Koreya məsələsində isə Tramp və Pompeo ilə Boltonun mövqeləri üst-üstə düşməyib. Qərb mediasına yol tapan ehtimallara görə, Boltonun işinə son verən də məhz Şimali Koreya və Əfqanıstan mövzusundakı Tramp və Pompeo ilə yaşadığı kəskin fikir ayrılığı olub. Bolton Şimali Koreyaya hərbi müdaxilə ilə hakimiyyət dəyişikliyini dəstəkləyib, sülh danışıqlarına isti baxmayıb.

Əfqanıstanla bağlı isə Bolton açıq şəkildə administrasiya ilə ziddiyyətdə olub. Məsələn, keçən həftə "Vaşinqton Post"da milli təhlükəsizlik üzrə müxbir Con Hadson və Ağ Ev müxbiri Coş Dausi imzası ilə yayımlanmış məqalədə Con Boltonun Əfqanıstan müzakirələrində masadan kənar saxlandığı bildirilirdi. Səbəb isə Boltonun ABŞ-ın dünyada ən uzunmüddətli müharibəsi olan Əfqanıstan müharibəsini sona çatdırmağa mane olması göstərilirdi.

Bolton Trampın ən hücumçu instinktləri ilə hərəkət etməsini istəyib, ancaq onun bu kəskin mövqeyi prezident Trampı narazı salıb. Hətta o qədər ki, Trampın əmri ilə Talibanla danışıqları aparan Zalmay Xəlilzad ABŞ-ın Talibanla imzalamağa hazırlaşdığı razılaşma mətninin qaralamasını Boltona göstərməkdən imtina edib və bu göstərişin Trampdan gəldiyini bildirib. Halbuki bu anlaşmanın mərkəzində ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri dayanmalı idi.

Həmin vaxt Brukinqs İnstitutunun beynəlxalq təhlükəsizlik mütəxəssisi Tom Rayt Con Boltonun uzun müddətdir ki, prezidentin vəkili olduğunu və işinin Trampın baxış bucağını yerinə yetirmək olduğunu söylədiyini, ancaq uzun müddətdir birgə çalışan bu ikilinin ayrılması ehtimalının yüksək olduğunu bildirmişdi.

Maraqlıdır ki, İrana münasibətdə Bolton və Pompeo arasında fikir ayrılığı olmayıb. Bolton kimi Pompeo da İrana qarşı sərt reaksiyanın tərəfdarı olub. Ancaq bu məsələdə Bolton və Pompeo ilə Trampın mövqeyi üst-üstə düşməyib.

Hətta bu ilin mayında ABŞ-İran münasibətləri müharibə həddinə çatanda İran rəsmiləri bu vəziyyətin yaranmasına görə Boltonu günahlandırmışdı. Fars körfəzində BƏƏ və Səudiyyə Ərəbistanı tankerlərinə hücumdan sonra Bolton hücuma görə İranı ittiham etmişdi. Boltonun İran hakimiyyətinə qarşı kəskin fikirlərinə görə xarici işlər naziri Cavad Zərif sosial media üzərindən prezident Trampa müraciət edərək, Boltonun "müharibəyə susamışlığını" rədd etməyə çağırıb.

Qeyd edək ki, ABŞ siyasi dairələrində "şahin" qanadın nümayəndəsi olan Con Bolton ABŞ-ın İraqı işğalının "memarlarından" biri hesab olunur. Bolton habelə Corc Buşun prezidentliyi dövründə ABŞ-ın BMT-dəki səfiri işlədiyi vaxtlardan İrana qarşı sərt çıxışları ilə məşhurdur. Tramp hakimiyyətə gəldikdən sonra isə Bolton tezliklə Ağ Evə dəvət olunub. 2018-ci ilin əvvəlində Bolton prezident Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri təyin olunub. Hələ müşavir təyinatından bir neçə ay əvvəl Bolton İran hakimiyyətinə qarşı silahlı mübarizə aparan "Xalqın Mücahidləri" təşkilatının Parisdə keçirilən konqresinə qatılıb və burada etdiyi çıxışında İran inqilabının 40 ilinin tamam olmayacağını deyib.

Maraqlıdır ki, prezident Tramp Boltonun fəaliyyətindən razı olsa da, İranla münasibətlərin pisləşməsinə görə onu günahlandırıb. Bir qədər əvvəl Tramp bildirmişdi ki, Bolton çox yaxşı çalışsa da, Yaxın Şərq mövzusunda onunla tez-tez anlaşılmazlıqlar yaşayır.

Bolton açıq şəkildə İran, Şimali Koreya, Liviya, Suriya kimi ölkələrdə ABŞ-ın hakimiyyət dəyişikliyi həyata keçirməsini müdafiə edir. 2009-cu ildə isə Bolton İsrail-Fələstin münaqişəsinin həlli üçün Qəzzanı Misirə, İordan çayının qərb sahili ərazilərinin isə İordaniyaya verilməsini təklif etmişdi. Eyni zamanda Bolton İranı "dayandırmaq üçün bombalamağı" təklif edib və Obamanın İranla nüvə anlaşmasını açıq şəkildə tənqid edib.

ABŞ prezidentinin sabiq milli təhlükəsizlik müşaviri 1948-ci ildə ABŞ-ın Merilend ştatının Baltimor şəhərində dünyaya gəlib. Yel Universitetində hüquq təhsili alıb. 1980-ci illərdə Vaşinqtona köçən Bolton Ədliyyə Nazirliyi və Dövlət Departamentində müxtəlif postlarda çalışıb. 1982-83-cü illərdə Reyqan kabinetində, həmçinin ata və oğul Buşların komandasında yer alıb. 2001-ci ildə Corc Buş komandasına daxil olub və 2003-cü il İraqa hərbi müdaxilənin əsas dəstəkçilərindən olub. 2005-ci ilin avqustundan 2006-cı ilin dekabrına qədər ABŞ-ın BMT-dəki daimi nümayəndəsi olub. Və bu zaman sərt çıxışları ilə məşhurlaşıb. Daha sonra Respublikaçılar Partiyasına yaxın "beyin mərkəzləri"ndə çalışıb, İsraillə dostluq mərkəzinin aparıcı şəxslərindən olub, eyni zamanda FOX telekanalında şərhçi kimi fəaliyyət göstərib.

Bolton islamafob fikirləri ilə də tanınıb. 2016-cı ildə qatıldığı bir konfransda İslamın Qərb sivilizasiyası üçün bir təhdid olduğunu və müsəlmanların ABŞ-da gizli şəkildə təşkilatlandığını, hətta Obamanın da gizli müsəlman olduğunu söyləyib. Yenə həmin il yazdığı kitabında ABŞ qarşısında ən böyük təhlükənin terror təşkilatları olduğunu, terrorizmin isə İslam dünyası ilə bağlı olduğunu bildirib.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Həmsədrlərin son bəyanatına Bakıdan sərt etirazlar

## "Minsk Qrupu Dağlıq Qarabağın Azərbaycanın əlindən alınması missiyasını davam etdirir..."

**ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistan rəhbərliyinin təkcə son aylarda işğal altındakı Azərbaycan ərazilərində çıxartdıqları oyunlara seyrçi qalandan sonra nəhayət, "varlıqlarını" göstərmək istədilər. Belə ki, diplomatlar sentyabrın 8-də Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində "yerli seçkilər"in keçirilməsinə münasibət bildirməklə guya ki, tənzimlənmə prosesinə "töhfə" verdiklərini isbat etməyə çalışdılar.**



Ancaq Minsk Qrupu həmsədrlərinin yaydığı bəyanat Azərbaycanda etiraza səbəb olub. Bəyanatda bildirilir ki, həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli həlli kontekstində Dağlıq Qarabağ əhalisinin öz gələcəyi barədə qərar qəbul etmək rolunu tanıyır. Elə daha çox qıcıq yaradan məqam da budur. Bəyanatda daha sonra deyilir: "Dağlıq Qarabağ nə ATƏT-in Minsk Qrupu ölkələri, nə də digər ölkələr tərəfindən müstəqil və suveren ölkə kimi tanınır. Bu "seçkilərin" nəticələrinə də Dağlıq Qarabağın hüquqi statusuna təsir edən amil kimi baxılmamalı, heç bir halda bu nəticələr Dağlıq Qarabağın yekun statusuna və münaqişənin davamlı və sülh yolu ilə həlli istiqamətinə yönəlmiş hazırkı danışıqların nəticələrinə xələl gətirməməlidir".

**Ermənişünas alim, politoloq Qafar Çaxmaqlı "Yeni Müsavat"a bildirdi ki, həmsədrlər Qarabağda keçirilən "seçkilər"ə əslində həmişəki münasibətlərini bildiriblər:** "Onlar bu tədbiri gələcəkdə buranın əhalisinin "özünütəyin haqqı" üçün növbəti addım hesab edirlər. Bu isə bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünə saygısızlıqdır, ikinci tərəfdən isə Dağlıq Qarabağın on minlərlə azərbaycanlı əhalisini yox hesab etməkdir. Artıq bizə məlumdur ki, yeniləşmiş Madrid prinsiplərində Minsk Qrupu burada yaşayan əhali üçün referendumun keçirilməsində israrlıdır. Onların indiki bəyanatı da həmin günə hesablanıb və tədricən bu fikrin yeridilməsindən başqa bir şey deyil. Gələn il Dağlıq Qarabağda "prezident seçkiləri" olacaq. İstisna etmirəm ki, vasitəçiliyindən hələ imtina etmədiyimiz Minsk Qrupu bugünkü bəyanata bənzər bəyanat verəcəklər. Mən dəfələrlə demişəm, indi də bu fikrimdə qalıram ki, Minsk Qrupu Dağlıq Qarabağın Azərbaycanın əlindən alınması missiyasını davam etdirir".

**ABŞ-da, BMT Baş Assambleyası çərçivəsində gözlənilən növbəti Qarabağ danışıqlarına gəldikdə, Q.Çaxmaqlı dedi ki, onsuz da bu görüşlər hansısa ciddi razılaşmalara səbəb olmur:** "Ermənistan həmişə imitasiya ilə məşğul olur və danışıqların uzadılmasına çalışır. Onların bu məqsədə çatmasına da Minsk Qrupu yardım edir. Minsk Qrupunun fəaliyyətinə qiymət verilməli və onların anti-Azərbaycan fəaliyyəti ATƏT-in yüksək tribunalarından səsləndirilməlidir. İmtina etməyin müəyyən siyasi və diplomatik zərərləri olmaması üçün əsaslandırılmış qərar olmalıdır. Məncə, XİN bunları hazırlamalıdır".

**Ekspert onu da dedi ki, həmsədrlərin fəaliyyətindən imtina üçün bizim əlimizdə kifayət qədər arqumentlər var:** "Onlardan biri də Ermənistanın "işğalçı" adlandırılmamasıdır".

**QAT sədri Akif Nağı "Yeni Müsavat"a bildirdi ki, həmsədrlərin Dağlıq Qarabağdakı son "seçkilər"lə bağlı bəyanatı bizim necə bir təhlükə qarşısında qaldığımızı bir daha nümayiş etdirir:** "Bunlar birmənalı şəkildə ermənilərin tezislərini bizə qəbul etdirməyə çalışırlar. Ermənilərin onlara dediklərini əzbərləyir, sonra da öz adlarından bizə çatdırırlar. Hesab edirəm ki, məntiqlə onlar Ermənistana sərt münasibət sərgiləməli, "seçki" oyunlarını qəti şəkildə pisləməli idilər. Bunun əvəzinə çox yumşaq, əslində ermənilərin əlinə oynayan açıqlama ilə kifayətləndilər".

**A.Nağı bir məqamı xüsusi olaraq vurğuladı:** "Sənəddə "Dağlıq Qarabağ əhalisinin öz gələcəyi barədə qərar vermək rolunun tanındığı" qeyd olunur. Əlbəttə, həmsədrlər burada ermənilərin rolundan, hüququndan danışırlar, bununla Ermənistanın işğalçı rolunu arxa plana keçirməyə cəhd edirlər. Biz bunu deməli və qəbul etməməliyik. Məsələnin başqa tərəfini demək istəyirəm. Onlar "Dağlıq Qarabağ əhalisi" ifadəsi işlədirlər. Deməli, orada yaşamış azərbaycanlılar da nəzərdə tutulmalıdır, onların haqqı nəzərə alınmalıdır. Azərbaycan bu mövqeni sərt və davamlı şəkildə ortaya gətirməlidir. Həmsədrlərin buraxdıqları "quşlar"dan da istifadə etməyi bacarmalıyıq".

Hələlik rəsmi Bakı Minsk Qrupu həmsədrlərinin bəyanatına reaksiya verməyib.

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019

**Bakı Apelyasiya Məhkəməsində kikboks beşqat dünya çempionu Ehram Məcidovun barəsindəki hökmdən prokurorluğun verdiyi protestə və zərərçəkən tərəfin şikayətinə baxılır. Qeyd edək ki, Ehram Məcidov "Neftçi" İSM-də kikboks bölməsinin baş məşqçisidir.**

# Kikboks üzrə beşqat dünya çempionunun məhkəmə hökmü qalmaqal yaratdı

## Beşbarmaqla alimi ölümcül döyən Ehram Məcidova cəmi 3 il 6 ay cəza verilməsi prokurorluğu silkələyib; zərərçəkən qanlı cinayətin təfərrüatını "Yeni Müsavat"a danışdı

Hakim Vaqif Mursaqulovun sədrliyi ilə keçirilən prosesdə zərərçəkən qismində alim Bəhruz Dilbazi tanınır. İş üzrə məhkəmə tibb ekspertizasının rəyi ilə tanış olanda belə təəssürat yaranır ki, beşqat dünya çempionu özünü döyüş meydanında, alim Bəhruz Dilbazini isə bütün dünyada tanınan rusiyalı döyüşçü Həbib Nurməhəmmədov bilib.

Tibbi ekspert verdiyi rəydə Bəhruz Dilbazinin kəllə-üz sümüklərinin qəlpəli sınıqları, dişlərinin zərbələrin təsirindən kökündən tökülməsi, sınması, çənəsinin sınması, sağ qolu sümüyünün sınığını müəyyən etdiyini yazır. Qeyd edir ki, həmin xəsarətlər Bəhruz Dilbaziyə küt alətlə yetirilib.

Bütün bunlardan sonra Ehram Məcidov həbs olunub, iş 3 maddə ilə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Hakim Eldar İsmayılov iş üzrə bu məhkəmənin tarixində görünməmiş hökm çıxarıb. Həmin hökm Bakı Ağır Cinayətlər Məhkəməsinin qanunlardan əvvəl elə məhkəmənin adının mahiyyətinə ziddir. Heç bir tərəddüdsüz bu, Ağır Cinayətlər Məhkəməsində verilmiş ən yüngül cəza adlandırıla bilər.

Əlbəttə ki, belə bir cinayətə görə 3 il 6 aylıq cəza zərərçəkəni qane edə bilməzdi. Prokurorluq da sanksiyasının aşağı həddi 8 il olan maddələrlə təqsirləndirilənə görünməmiş cəzaya reaksiyasız ötüşə bilməzdi.

**"Belə çıxır ki, idmançılara adamları ölümcül döymək, ömürlük şikəst eləmək izni verilir?"**

**Zərərçəkən Bəhruz Dilbazi deyir ki, artıq işlə bağlı ölkə rəhbərliyinə şikayət ünvanlayıblar. Ümid edirlər ki, hakim Eldar İsmayılovun qanunsuz hökmü ləğv olunacaq, Ehram Məcidov layiq olduğu cəzaya çatdırılacaq:** "Təsəvvür edin ki, hakim Eldar İsmayılov hökmdə yazır ki, Ehram Məcidovun idman nailiyyətlərini nəzərə alır, 2 maddəni çıxarır və ona 3 il 6 ay cəza kəsir. Belə çıxır ki, idmançılara adamları ölümcül döymək, ömürlük şikəst eləmək izni verilir? Belədirsə, biz də bir idmançı tapaq, onu şikəst eləsin... Azərbaycan məhkəməsində hakim özünü mafiyanın nümayəndəsi kimi aparmamalıdır.

Üstəlik, Ehram Məcidov həbsdən çıxıb bizi öldürəcəyini də hakimin qulaqları eşidə-eşidə deyir. Azərbaycanda qanun varsa, bu işi araşdırmalı, Ehram Məcidovun etdiyi cinayətə ona vəkillik edəcək hakim deyil, müstəqil hakim qiymət verməlidir. Bu dərəbəyliyə, bu özbaşınalığa son qoyulmalıdır".

**"Qızım deyirdi ki, narkotikdən istifadə edir"**

**Zərərçəkən alim deyir ki, Ehram Məcidov idmançı adını qalxana çevirib:** "Cavanlığımda mən də idmanla məşğul olmuşam. İdmançı əməli-saleh, sözündə düz olmalıdır. Ehram Məcidov isə yalan danışır, şər atır. Məhkəmədə yalandan deyir ki, guya mən onu vurmuşam. Əgər mən onu vuracaqdımsa, həmin gün Binəqədi İcra Şöbəsinə niyə nəvələrimlə gedirdim? Bu qədər yalan olar? Həm də mən onun qızımla boşanmasından sonra da övladları ilə görüşməsinə, uşaqların ataları ilə normal münasibət qurmalarına çalışmışam. O, mənim qızımla 2007-ci ildə evlənib. 2009-cu ildə Tuncay, 2011-ci ildə Rəqimə dünyaya gəlib. Ailə münasibətləri normal idi. Sonradan Ehram pis vərdişlərə qurşandı, evdə dava-dalaş salmağa başladı. Qızım deyirdi ki, narkotikdən istifadə edir. Qızı uşaqların gözü qabağında vəhşicəsinə döyürdü. 2016-cı ilin sentyabrında artıq vəziyyət dözülməz həddə idi, qızım qayıdıb gəldi. Ərizə verdik məhkəməyə və 2017-ci ilin yanvarında nikah pozuldu. Bundan sonra yenə də qızımdan əl çəkmədi. Qızımın iş yerinə gedib deyirdi ki, onu öldürəcəyəm. Ona görə də qızım məcbur olub işdən çıxdı. Deyirdi ki, qız evə qayıtmalıdır. Feodal dönəmindəki kimi qaydalar qoyurdu. Deyirdi döyüb öldürsəm də, evimdə qalmalıdır. Bizdən əl çəkmirdi, təqib edirdi. Qızım da qayıtmaq istəmədi. Məhkəməyə müraciət etdik, evə, maşına həbs qoydular. Məlum oldu ki, evi də, maşını da qardaşının, bacısının ərinin adına keçirib".



**"Ehram Məcidov idman nailiyyətlərinin arxasında gizlənir"**

**Zərərçəkən deyir ki, Ehram Məcidov onun qızı ilə ailə həyatı quranda tanınan idmançı, çox yaxşı reputasiyası olub:** "2-3 il normal həyatları oldu. Sonradan pis vərdişlərə qoşuldu, reketlik elədi, "razborka"lara gedirdi. 2012-ci ildə onu "razborka" vaxtı bıçaqlamışdılar. 2014-cü ildə "Siti" hospitalın həkimini bıçaqladı, ölümcül yaraladı. Cəmiyyətdə də, evdə də idmançıya xas olmayan hərəkətlərə yol verirdi. İdmançının özündən zəifə, həm də qadına əl qaldırması onun ölümü deməkdir. Bunu idmanla məşğul olan hər kəs təsdiqləyə bilər. Ehram Məcidov isə idman nailiyyətlərinin arxasında gizlənir".

**"Hakim Eldar İsmayılov iş başlayandan Ehramın vəkili qismində çıxış edirdi"**

**Zərərçəkən deyir ki, qızı da ölkə rəhbərliyinə müraciət edib:** "Ehram Məcidovun himayəçiləri var. Adlar çəkir, deputatların adlarını hallandırır. Deyir ki, mən bu məhkəmələrdən qurtaracağam, gəlib sizi öldürəcəyəm. Bu adam mənə beşbarmaqla ağır xəsarətlər yetirib. Üzümün sağ tərəfindən əməliyyat olunmuşam, üzümdə bir də əməliyyat olunmalıdır ki, plastinkalar çıxarılsın. Dişlərim sınıb tökülüb. Ağır Cinayətlər Məhkəməsinin hakimi Eldar İsmayılov iş başlayandan Ehramın vəkili qismində çıxış edirdi. Şahidlərə hakim də, Ehram Məcidovun tələbə adlandırdığı cinayətkar qrupu da məhkəmə zalındaca təzyiq edirdilər. Hakim reaksiya vermirdi. Hətta məhkəmədə hakimin gözü qabağında bizi təhqir edirdilər. Eldar İsmayılov çox vaxt özünü elə aparırdı ki, guya heç nə baş vermir. Ehram Məcidov hakimin qulaqları eşidə-eşidə deyirdi ki, mənə yüngül cəza veriləcək, çıxıb səni öldürəcəyəm. 3 maddə ilə ittiham verilmişdi ona. Hakim 2 maddəni qanunsuz olaraq çıxardı, Bakı Ağır Cinayətlər Məhkəməsində görünməmiş bir hökm çıxartdı. Üzümün bir hissəsində salamat sümük qalmayıb, beşbarmaqla mənə qarşı nəvələrimin gözü qarşısında cinayət törədilib. Cinayət dövlət idarəsində baş verib. Hakim bunları nəzərə almadı. Biri digərinə 1 sillə vurur, ona 3 il 6 ay cəza verilir. Bizə qarşı ağır cinayət etmiş Ehram Məcidova da 3 il 6 ay cəza verildi. Hələ Bakı İstintaq Təcridxanasında üzləşmə zamanı da bizi müstəntiqin yanında açıq-aşkar hədələyirdi. Deyir ki, mən buradan tezliklə çıxacağam, siz mənə heç nə edə bilməyəcəksiz, gəlib sizin hamınızı öldürəcəyəm. Bu gün də həbsdə ola-ola bizlərə zəng edir və hədələrini davam etdirir".

**"Uşaqların gözünün qarşısında anasını yerə yıxıb əlindəki bıçaqla başını, qulağını kəsəcəyi ilə hədələyib"**

**Zərərçəkən alim deyir ki, Ehram Məcidovun onlara qarşı cinayəti 2018-ci ilin sentyabrında baş verib:** "Ali Məhkəmənin Ehram Məcidovun uşaqları ilə görüşmək haqda qərarı oldu. İlk görüş sentyabrın 1-nə təyin edildi. Görüşdə bizi hədələməyə başladı. Buna əhəmiyyət vermədik. Uşaqlar da ona yaxın getmirdi. Çünki uşaqların gözünün qarşısında anasını yerə yıxıb əlindəki bıçaqla başını, qulağını kəsəcəyi ilə hədələyib. Mən də uşaqlara deyirdim ki, atanızdır, gedin görüşün. Uşaqlar da deyirdi ki, o vəhşidir, anam kimi bizim də başımızı kəsər. Anamız kimi bizi döyər. Həmin gün görüşə məhkəmə icraçısı Bəxtiyar İsmayılov çağırmışdı. Görüş isə icra şöbəsində icraçı Vüqar Alıyevin otağında oldu. Vüqar Alıyev Ehram Məcidovla dostdur. Vüqar Alıyev 2 ildir ki, maşın həbsdə ola-ola maşını alıb verir. Qızım ondan Fikrət Məmmədova şikayətlər edib. Alıyevin balaca bir kabineti var. Orada uşaqlarla 10-15 dəqiqə söhbət elədi, onlarla birgə getmələrini istədi. Uşaqlar da getmirdilər. Dedi ki, sizi nənəniz, babanız öyrədib. Qəfildən qolumdan tutub başladı mənə zərbələr vurmağa. Mən oturmuşdum, ayağa qalxa bilmədim. Üzümün sağ tərəfinə dəfələrlə zərbələr vurdu. Dişlərim tökülüb, üz sümüklərim sınıb, sinirlərim dağılıb. Sağ qolum sınıb. Onun əlində beşbarmaq olmasaydı, qolum sınmazdı, üz sümüklərim bu dərəcədə parçalanmazdı. Mən qan içində idim, uşaqlar qışqırırdı, ağlayırdılar. Səs-küyə icraçılar gəldilər. Onu tutub apardılar. Polislər gəlib onu apardı və az sonra yenidən azad etdilər".

**"Görəsən, hakimin kürəkəni onun özünə qarşı belə etsəydi, eyni cəzanı verərdi?"**

**Zərərçəkən deyir ki, hakimlərin Ehram Məcidovun müdafiəçisi rolunda çıxış etmələri son nəticədə ona yüngül cəza verilməsi ilə nəticələnib:** "Hakim Eldar İsmayılov uşaqdan məhkəmədə soruşdu ki, atan babanı nə ilə vurdu? Uşaq da dedi ki, əlində üzüklər vardı, onunla vururdu. Buna baxmayaraq, hakim ona 3 il 6 ay cəza verdi. Görəsən, hakimin kürəkəni onun özünə qarşı belə etsəydi, eyni cəzanı verərdi?"

❑ **E.MƏMMƏDƏLİYEV**
**"Yeni Müsavat"**



# Məşhur əxlaqsızlıq yuvasını işlədənlər hakim qarşısında- ikisi qardaşdır

**Əxlaqsızlıq yuvası olması ilə məşhur olan "Pəhləvan" kafesini işlədən şəxslər hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində Abşeron rayonunda kafedə əxlaqsızlıq yuvası saxlamaqda və narkotik vasitələrin dövriyyəsində təqsirli bilinən Qabil Ramazanov, onun qardaşı Habil Ramazanov və Yalçın Əzimlinin cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Rəsmi məlumata görə, Qabil Ramazanov, Habil Ramazanov və Yalçın Əzimovun saxlanılması üçün əməliyyat Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi tərəfindən keçirilib.

Abşeron rayonunda (Saray qəsəbəsi yaxınlığında) yerləşən "Pəhləvan" kafesində keçirilən əməliyyat nəticəsində məlum olub ki, kafedə xüsusi hazırlanmış otaqlarda qadınlar kişi müştərilərə pul müqabilində intim xidmət göstəriblər. Kafeni işlədən Qabil Ramazanov, qardaşı Habil Ramazanov və Yalçın Əzimovun həmin obyektdə əxlaqsızlıq yuvası təşkil etməklə qazanc əldə etdikləri üzə çıxıb.

Məlumata görə, həbs olunan zaman Qabil Ramazanovdan külli miqdarda narkotik vasitə aşkar olunub.

İstintaq orqanı Qabil Ramazanov, barəsində Cinayət Məcəlləsinin 244.2.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən əxlaqsızlıq yuvaları saxlama) və 234.4.3-cü (qanunsuz olaraq külli miqdarda narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddələri ilə ittiham elan edib.

Digər iki təqsirləndirilən Habil Ramazanov və Yalçın Əzimlinin barəsində Cinayət Məcəlləsinin 244.2.2-ci maddəsi ilə ittiham verilib.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 188 (7358) 12 sentyabr 2019

# Cəmiyyəti necə mədəniləşdirməli - sərt qaydalar, yoxsa maarifləndirmə?

## Araz Əlizadə: "Qanunlar işləyəndə biz tərbiyəli toplum görəcəyik"

## Əhməd Qəşəmoğlu: "Nəticə üçün uzunmüddətli maarifləndirmə ilə yanaşı, inzibati yollar seçməliyik"

**Bir dəfə qarşılaşdığım hadisəni yazmışdım: 3-4 yaşlarında bir qız uşağının əlindəki şokoladın kağızı barmaqlarının arasından birdən sürüşüb yerə düşür, anası götürüb bir az da aralıya tullayır. Uşaq əyilib onu götürmək istəyəndə, anası üstünə qışqırır ki, toxunma, qoy yerdə qalsın.**

Amma qızcığaz anasını dinləmir, gözümün qabağında şokoladın kağızını götürüb aparıb bir az aralıdakı zibil qutusuna atır. Təsəvvür edirsiniz?

İndi davranış mədəniyyətsizliyi, qaydalara əməl etməmək kütləviləşib: nəqliyyatda, ünsiyyətdə, restoranda, valideynlə övlad münasibətlərində...

Azərbaycanda toplumun, kütlənin özünü aparmaq formasından çoxumuz narazıyıq. Əslində başqa xalqlarda da, Avropada da belə olub.

Bir vaxtlar Avropada balkondan paltar asanı həbs edirlər, avtobusa bilet almayanı güllələyiblər, söyüşlə küçədə danışanı cəzalandırıblar. Beləcə, sərt qaydalar insanlarda davranış vərdişi formalaşdırıb.

Biz hər gün tərbiyəsiz sürücü, tum çırtlayıb parkda yerə tökən ana, zibili balkondan aşağı tullayan, metroda oturuşunu-duruşunu bilməyən, liftdə yerə tüpürən, mağazada növbə gözləməyən onlarla insanla rastlaşırıq.

Cəmiyyətin mədəniləşməsi üçün yazılan tonlarla kitablar, ziyalıların çağırışları, sərt qanunlar da fayda verməyib. Etiraf etmək lazımdır ki, gündən-günə mədəni səviyyəmiz enir, bir-birimizə hörmət etmək istəmirik, növbə gözləmirik, qışqıraraq danışırıq. Necə etməli? Hansı metodlar mədəni səviyyəni qaldıra bilər?



Qərb özü sivilizasiyaya çatana qədər ağır proseslərdən keçib. Fransada, İngiltərədə baş verən burjua inqilabları yeni mentalitetin formalaşmasının əsasını qoyaraq yeni dünya quruculuğu prinsiplərini müəyyənləşdirmişdi.

Görəsən, bizdə də sərt qaydalar, mexanizmlər tətbiq olunarsa, kütlələr islah oluna bilərmi?

Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri, deputat Araz Əlizadənin fikrincə, toplumu yalnız tərbiyələndirməklə islah etmək mümkündür.

Onun "Yeni Müsavat"a dediyinə görə, sovet vaxtı məktəbdə, bağçada, ailədə, cəmiyyət içində insanlar olduqca mədəni, tərbiyəli davranırdılar: "Biz o dövrü də görmüşük, bu dövrü də. Onda insanlar özlərini ictimai yerlərdə çox mədəni, tərbiyəli aparırdılar. Bizdə çox təəssüf ki, müstəqilliyi özbaşınalıq kimi başa düşənlər oldu və bundan necə gəldi istifadə etməyə başladı. İkincisi, yaşlı yazıçılar maarifçiliklə məşğul olurdu, dəyərlər barəsində yazırdılar. Mən indiki cəmiyyəti maarifləndirən cavan yazıçı görmürəm".

**A.Əlizadə hesab edir ki, qanunlar işləməyəndə belə də olacaq:** "Qanunlar işləyəndə biz tərbiyəli toplum görəcəyik. Buna görə də yalnız tərbiyə yolu ilə nəyəsə nail olmaq mümkündür, hansısa cəzalar, sərt addımlar çıxış yolu deyil".

**Sosioloq Əhməd Qəşəmoğlu hesab edir ki, indiki vaxtda maarifləndirmə ilə nəticə qazanmaq daha çətindir, nəinki 50 il qabaq:** "O vaxtın insanlarını maarifləndirmək asan idi. Bunu onların təhsil səviyyəsi, əxlaqi-mənəvi dəyərlərə bağlılığı ilə əlaqələndirmək lazımdır. Biz nəticə üçün uzunmüddətli maarifləndirmə yolu seçməklə yanaşı inzibati yollar seçməliyik".

**Sosioloqun sözlərinə görə, xeyli vaxtdır siqaretin ziyanlı olması, qohumla nikahdan doğulan uşağın sağlamlığına zəmanət olmaması, toylarımızın bayağı keçirilməsi barədə təbliğat gedir, maarifləndirmə işləri aparılır:**

"Amma çifayda?! Toylar barədə bar-bar bağırırıq ki, get-gedə şit olur, amma eşidilmir. Toplum elə yerə çatıb ki, maarifləndirməklə olmur. Təbii ki, bu yolu da kənara qoymaq olmaz. Sadəcə, inzibati metodlardan istifadə edilməlidir. Digər tərəfdən də, telekanallar normal maarifləndirmə işi aparmır, əksinə, şit-şit verilişlər göstərilir. Maarifləndirmə metodundan düzgün istifadə olunmur, müasir metodlar tətbiq edilməlidir.

Məmurların çoxunun sosiologiyadan, sosial idarəetmədən xəbəri yoxdur. İlk növbədə maarifləndirmək üçün elmi təminat dayanmalıdır. Heç bizdə bunu bilən yoxdur. Ona görə yeganə yol inzibati metoda qalır".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Maşın bazarlarındakı fırıldaqçı şəbəkə - vətəndaşları soyurlar



## Hüquqşünas dələduzların toruna düşməməyin yollarını göstərdi

**Maşın bazarları vətəndaşların kütləvi aldadıldığı məkanlara çevrilməkdədir. Gələn məlumatlar belə deməyə əsas verir. Azərbaycana idxal edilən ikinci əl minik avtomobillərinin əksərinin qəzalı, suda, seldə batmış, təhlükəsizlik yastıqlarının işlək olmaması ilə yanaşı, qiymətlərin kəllə-çarxda olması dələduzlara geniş meydan açıb. İdxal-gömrük rüsumunun 2018-ci ilin yanvar ayının 1-dən çox artırılması avtomatik maşın bazarında qiymətlərə təsir etdi. Dünənə qədər 3-4 min manata olan maşınlar 5-6 min manata qədər bahalaşdı. Bundan əvvəl isə ölkə banklarında faktiki olaraq maşın kreditləri məhdudlaşdırılıb. Beləcə vətəndaşların maşın almaq istəklərinin üzərindən bazardakı əlçatmaz qiymətlər çarpaz xətt çəkmiş oldu. Nəticədə bazarlarda dələduz sxemlər üçün münbit şərait yarandı. Dələduzlar bazarlarda vətəndaşları soymağa başladılar. Bəhs olunan fırıldaqçı sxemi belə işləyir: Bazara maşın almağa gələn, cibində 3-5 min manat pulu olan vətəndaşa yerindəcə kredit təklif edənlər tapılır. Vətəndaşın 5 min pulu var və o, uyğun avtomobil axtarır ki, ilkin ödəniş edib ala bilsin. Dəllallar ona təklif edirlər ki, bazarda müəyyən adamlar var, onlar maşını alır və sənə kreditlə yenidən satır. Məsələn, vətəndaş 10 min manatlıq maşın bəyənib, əlindəki 5 min manatı verir, qalan hissəni isə "müəyyən adam" qoyur, maşını alverçidən və ya sahibindən alır, öz adına keçirir. Sonra vətəndaşa deyir ki, ona bir və ya bir neçə aylıq sürücülük etibarnaməsi verəcək, 5 min manatın əvəzinə hissə-hissə, aylıq ödənişlə 7 min manat qaytaracaq. Həmin məbləği ödəyib qurtarandan sonra isə maşını onun öz adına keçirəcəklər. Faktiki olaraq 10 minlik maşını vətəndaşa 12-13 minə sırıyırlar. Hələ bununla canını qurtara bilsə. Vətəndaş bəzən maşını alarkən bütün bunlardan məlumatsızdır deyə, asanca dələduzluğun qurbanı olur.**

Heç nədən şübhələnməyən vətəndaşa seçdiyi maşını əl ilə yazılmış, heç bir hüquqi əsası olmayan, qondarma bir kağızla satırlar. Bu zaman avtomobil üçün etibarnamə yalnız sürməyə, həm də çox qısa müddətə verilir. Bir müddət sonra avtomobilin hüquqi sahibi, yəni maşın sahibi ortaya çıxır. Maşınını qısamüddətli etibarnamənin müddəti bitdiyi üçün geri almaq istədiyi haqda Dövlət Yol Polisinə ərizə yazır. Bu halda DYP avtomobil nəqliyyat vasitəsi sahibinin tələbini təmin edir, qanunvericiliyə əsaslanaraq maşını öz sahibinə qaytarır. Vətəndaşın pulu da gedir, maşın da əlindən çıxır.

Belə şəbəkə əsasən Sumqayıtdakı maşın bazarında tüğyan edir. Bəs vətəndaş dələduzluğun qurbanı olmaması üçün nə etməlidir?

**Hüquqşünas, Bakı "Hüquq" şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, nəqliyyat vasitəsini satan şəxs öz adına olan qeydiyyat şəhadətnaməsinə malik olmalıdır:** "Yaxud da satmağa sərəncam vermək icazəsinin olduğunu təsdiqləyən digər sənəd - yəni etibarnamə olmalıdır. Alqı-satqı proseduru ya notariat kontorunda, ya da Baş Dövlət Yol Polisi İdarəsinin nəzdində yerləşən qeydiyyat idarəsində rəsmiləşdirilməlidir. İki şəxsin arasında əllə yazılmış və ya kompüterdə yığılmış mətni tərəflər arasında bağlanmış müqavilə adlandırmaq olmaz. Belə əlyazmaların, mətnlərin heç bir hüquqi əsası yoxdur. Ümumiyyətlə, Azərbaycanda bu cür hallar tez-tez baş verir. Təbii ki, müvafiq qurumlar bunlarla mübarizə də aparırlar. Çox zaman insanlar bu cür dələduzların qurbanları olur. Nəqliyyat vasitəsinin sahibi kimdirsə, yəni qeydiyyat şəhadətnaməsi kimin adınadırsa, həmin şəxs nəqliyyat vasitəsinə sərəncamverici hesab edilir. Adətən belə hallarda dəllallar nəqliyyat vasitəsinin sahibi ilə qeyri-rəsmi razılığa girirlər. Bundan sonra avtomobil əlyazma, cızma-qara və ya kompüterdə yığılan mətnlə satılır, hansı ki, həmin kağız parçası ilə alıcının hüquqları tanına bilməz. Beləcə alıcıdan müəyyən məbləğ alırlar. Bir neçə aydan, hətta bir neçə gündən sonra nəqliyyat vasitəsinin sahibi verilmiş bütün etibarnamələri notariat kontorunda ləğv edir. Sonra polisə müraciət edir və nəqliyyat vasitəsinin qanunsuz olaraq qaçırıldığını, ondan götürüldüyünü, yaxud kiməsə etibar etdiyini, həmin nəqliyyat vasitəsinin həmin şəxs tərəfindən qaytarılmadığını bildirir. Polis də həmin nəqliyyat vasitəsinin saxlanılması barədə göstəriş verir. Həmin nəqliyyat vasitəsini idarə edən, hansı ki, onu rəsmi olaraq aldığını düşünən şəxs də bütün bunlardan məlumatsızdır. Polis onu saxlayır. Nəqliyyat vasitəsini qoyurlar dayanacağa. Şəxs də baxır ki, artıq aldanıb. Həmin şəxslər də yoxdur. Çox vaxt həmin şəxslər müvəqqəti bir yer götürürlər, insanlara göstərsinlər ki, onlar burada fəaliyyət göstərirlər. Əslində onların bir nümayəndəsi də maşın bazarlarında fəaliyyət göstərir. Qurbanlar axtarırlar. Həmin şəxslərin niyyətləri konkret olaraq dələduzluqdur. Qanunvericilikdə bu cür şəxslərin əməlləri dələduzluq hesab olunur. Nəqliyyat vasitəsi əgər kreditlə verilirsə, satan adamın kredit vasitəsilə alqı-satqı aparmağa xüsusi icazəsi olmalıdır. Ya bank, ya da bank olmayan kredit təşkilatı olmalıdır. Əgər bunlar yoxdursa, nəqliyyat vasitəsinin alqı-satqısı Baş Dövlət Yol Polisi İdarəsində həyata keçirilməlidir. Bu adamlar qanunla tanınan vasitələrin heç birindən istifadə etməyiblər. Sadəcə, öz aralarında - şəxslər arasında alqı-satqı edirlər. Çünki hansısa quruma getsələr, ortada rəsmiyyət olmalıdır. Rəsmi olaraq tərəflərin arasında münasibət yaranacaq. Həmin şəxslər olmasın deyə onlar bu yollara əl atırlar. Vətəndaşlar beləcə dələduzların toruna düşür. Bu məsələlər hüquq-mühafizə orqanları tərəfindən nəzarətə götürülməli, aldanmış vətəndaşlar hüquq-mühafizə orqanlarına müraciət etməlidirlər".

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

# YENİ MÜSAVAT

## Son səhifə

N 188 (7358) 12 sentyabr 2019




## Yad bir qadının evinə girib yatdı, cərimələndi

**Kanadanın Kvebek bölgəsində bir kişi başqasının yatağında yatdığı üçün 496 Kanada dolları məbləğində cərimələnib. Bu barədə STV News xəbər verib. Polisdən xəbər veriblər ki, 8 sentyabrda yaşlı bir qadın gecə 2-yə yaxın evə qayıdıb və evindəki yataqda möhkəm yuxuya gedən bir kişi görüb. Evə girən şəxs sahibədən iki dəfə balaca idi. Qadın yad kişini oyatmayıb. Bunun əvəzində isə yaxın polis idarəsinə gedərək, qarşılaşdığı situasiya ilə bağlı məlumat verib.**

Polis hadisə yerinə gəlib, kişini oyadanda sonuncu öz evində olduğunu güman edib. Məlum oldu ki, kişi sərxoşdur və yad evi də özününkü ilə qarışıq salıbmış. Onun evi səhvən girdiyi evdən 18 kilometr məsafədə yerləşir.

Kişiyə başqasına məxsus evə üzrlü səbəb olmadan girdiyi üçün cərimə yazıblar. Polisdə dəqiqləşdiriblər ki, kanadalı evə qapını qıraraq girməyib, çünki qapı bağlı olmayıb. Qadın onunla bağlı hər hansı şikayət yazmayıb, kişini isə evə aparıblar.

Polisdə isə qeyd olunub ki, qanun pozan şəxs tərbiyəli şəxs olub. Belə ki, o, girdiyi evə daxil olanda ayaqqabısını çıxarıb, daha sonra yataq otağına girib.

# Soyuqqanlılığı həyatını xilas etdi

**Amerikanın Alyaska ştatında ayı Qunsit dağının yaxınlığında ovçulara hücum edib. Lenta.ru saytının xəbərinə görə, iki amerikan ov zamanı iki ayı balasını iki böyük ayı ilə meşədə görüblər. Ayılardan biri ovçuya hücum edib və onun başını, bədənini və ayağını ciddi şəkildə zədələyib. İkinci ovçu soyuqqanlılığını və idarəetmə qabiliyyətini saxlayıb və ayını düz ürəyindən vurub. Xəbər verilir ki, hər iki ovçunun 25 yaşı olub.**



Qleen Marlin və onun həyat yoldaşı Samanta hadisənin baş verdiyi yerin yaxınlığında olub və baş verənlər barədə facebookda yazıblar. Qlen qərara gəlib ki, ov zamanı partnyor seçimi çox vacibdir. Çünki bu adam lazımi məqamda təlaşdan özünü itirməməli, şikarı qıcıqlandırmamalıdır.

Onun həyat yoldaşı bildirib ki, hadisə yerinə vertolyot gəlib. Tibb bacısı və həkim ovçuya ilk tibbi yardımı göstəriblər, ardınca isə onu xəstəxanaya çatdırıblar.

# Türmədəki qatilə aşiq olub və onunla evlənməyə hazırlaşır



**İngiltərənin Şipli şəhərindən olan 41 yaşlı Treysi Botomli 53 yaşlı qatil Ernest Otto Smitə aşiq olub və ona ərə getməyə hazırlaşır. Qadın hazırda məhkum həyatı yaşayan qatillə 2018-ci ildən yazışma aparır.**

"Ernest məni qorxutmur - məni qorxutmaq elə də asan deyil. Bəli, o, serial qatildir, bir neçə cinayətdə ittiham olunub. Amma mən nə uğrunda risk etdiyimi başa düşürəm və bütün olanlara baxmayaraq, onu sevirəm. Öldürülmüş olmaq heç də həyatdan getmək üçün ən yaxşı üsul deyil. Amma biz hamımız nə vaxtsa dünyamızı dəyişirik. Məni onun qurbanı olmaq ehtimalı qorxutmur" - bunu da qadın deyib.

Bottomli türmənin facebook səhifəsi ilə tanış olandan sonra bu məhkuma yazmağa başlayıb. Yazışma proqramına o, öncə maraqdan qoşulub. Çünki həmin vaxta qədər o, artıq 3 il idi ki, yalnız idi. Britaniyalı bəyan edib ki, onu məhkumun öz keçmiş hekayəsi barədə açıq danışığı cəlb edib. Smit detallı şəkildə özünün birinci cinayəti barədə ona məlumat verib.

Qadın bildirib ki, onları ürəklərindəki ortaq zədələr birləşdirir. Bu zədələr də ətrafdakılardan onlara zamanında vurulub. Onun keçmiş nişanlısı uşaqlığında zorakılığa məruz qalıb ki, bu da onun depressiya və narkotikə qurşanmasına səbəb olub. Bottomlinin çiyinlərində bədbəxt münasibətlər və pozulmuş nikah qalıb.

Smit 2005-ci ildə iki nəfərin ölümünə görə həbsə məhkum edilib. Qadın məktublaşdığı məhkum sevgilisini heç vaxt canlı şəkildə görməyib. Amma bununla belə, onunla evlənməyə hazırdır. O deyir ki, həyat ona hansı sürprizlər hazırlasa da, bu izdivaca hazırdır.

# Bunları bilirsizmi?

*** Biz adətən öz valideynlərimizə oxşayan adamlara vuruluruq. Uşaqlıqdan valideynlərimizlə aramızda olan problemləri vurulduğumuz adamla həll etməyə, çatışmazlıqları onda tapmağa çalışırıq.**

*** Hətta müsbət hadisələr belə - universititeti bitirmək evlənmək və ya yeni işə başlamaq-depressiyaya gətirib çıxara bilir.**

*** Psixologiyada belə prinsip var: bir hadisədən nə qədər çox şey gözləyirsənsə o qədər də çox məyusluq yaşayırsan. Çox gözləyirsən, az əldə edirsən. Az gözləyirsən, çox əldə edirsən. Bu, dəmir prinsipdir, heç bir istisna yoxdur.**

*** İnsanlar tanış olmayan yerə gedib çıxanda adətən sağ tərəfdən geriyə dönürlər. Bunu bilməyin faydası: siz qələbəlik arasına düşmək istəmirsiniz, yaxud növbədə çox qalmaq istəmirsinizsə sol tərəfə meyllənin.**

*** Əgər gecələr sizə qarabasmalar əzab verirsə, böyük ehtimalla yuxuda üşüyürsünüz. Elmi faktdır - yataq nə qədər soyuq olarsa o qədər də çox qorxulu yuxular görəcəksiniz.**

*** Mütəxəssislərin müşahidələrinə görə, mavi gözlü adamlar bir neçə dəqiqə ərzində aşiq ola bilərlər. Qonur gözlü insanlar isə eyni zamanda iki nəfəri sevə bilərlər. Yaşıl gözlü adamların aşiq olması üçün uzun müddət lazımdır, hətta bir ilə yaxın.**

*** Kişi və qadın arasında şahidlik baxımından fərqlər var. Məsələn, bir cinayətkar küçədə kiminsə çantasını qapıb qaçır. Bunu görən qadın qurbanın üzünü yadda saxlayır, kişi isə oğrunun.**

*** İnsanın yaddaşı ən yaxşı səhər 8-dən 12-yə kimi, bir də axşam 9-dan sonra işləyir. Ən pis isə günortadan sonra.**

*** Əgər hər tərəfi tərs göstərən eynək taxsanız bir müddət sonra tərs velosiped də sürə bilərsiniz.**

*** Eyni vaxtda birdən çox işi görmək mümkün deyil. İnsanların çoxu bunu mümkün saysa da, elmi araşdırmalar sübut edir ki, bir işdən daha çox işə diqqəti cəmləmək mümkün deyil. Fiziki işlər istisnadır. Məsələn, yeriyə-yeriyə telefonla danışmaq mümkündür. Bu halda ya yola, ya da telefondakına diqqət verməliyik.**

*** Tez yatmaq üçün kürəyi üstə uzanın. Gözlərinizi bağlayın və göz bəbəklərinizi yuxarı qaldırın. Bu yuxu zamanı gözlərin normal halıdır. Bu vəziyyətdə yatarkən insan çox asan və bərk yatır.**

*** Psixoloqlar qadınların kişiləri qiymətləndirmək üçün onlara 45 saniyənin kifayət etdiyini deyirlər. 10 saniyə ərzində qadın kişinin bədən quruluşu, 8 saniyə ərzində gözləri, 7 saniyə ərzində saçları, 10 saniyəyə dodaqları və çənəsi, 5 saniyə ərzində çiyinləri barədə təəssüratını dəqiqləşdirir. Son 5 saniyədə isə qadın kişinin barmağında üzüyün olub-olmamasına baxır.**

## Dənizin ortasında balinanın üstündə qaldı



**Avstraliyada gənc bir adam suda sürüklənən ölü bir balinanın üzərinə çıxmış vəziyyətdə görüntülənib. İşin ən maraqlı tərəfi isə balinanın ətrafında köpək balıqlarının üzməsi idi. Harrison Villiams adlı gənc qayığı ilə dənizdə tura çıxdığı zaman acı çəkdiyini düşündüyü balinaya yardım etmək üçün suya hoppanıb. Amma balinanın yanına gəldikdən sonra ölü olduğunu anlayan Villiams onun üstünə çıxanda qəribə mənzərə ilə qarşılaşıb. Məlum olub ki, yaralı balinanın ətrafındakı köpək balıqları onu didmək üçün növbəyə dayanıblar. Gənc bu mənzərədən qorxuya düşdüyü üçün qışqırmağa başlayıb. Onu başqa bir gəmidəki heyət azad edib.**

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050